www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5-6 sentyabr 2015-ci il Şənbə № 196 (6224) Qiymətı 40 qəpik

**Xəbər**

## Ziya Məmmədovun 30 illik yolu 5 ilə darmadağın olub

yazısı səh.12-də

**Gündəm**

### Azərbaycanda 7 bal gücündə zəlzələ oldu, əhali təşvişə düşdü



Ən güclü təkanlar Şəkidə qeyd alındı; Göyçayda bir qadın zəlzələ nəticəsində dünyasını dəyişdi; Ağdaşda isə iki qadın özünü eyvandan atdı

yazısı səh.11-də

### 81 nəfər deputatlığa namizədliyini seçki komissiyalarına təqdim edib

yazısı səh.3-də

### Ədliyyə Nazirliyi ADR üzvlərinin müraciətini təmin etmədi

yazısı səh.4-də

### Müsavat, REAL və NİDA seçki ilə bağlı razılığa gəldilər

yazısı səh.6-da

### Jurnalistikadan parlamentə keçənlər...

yazısı səh.3-də

### Video-şantaj - o daha heç kimi təəccübləndirmir

yazısı səh.5-də

### Akademiklərin yazdıqları dərs kitablarında biabırçı ifadələr

yazısı səh.10-da

### Manat əlavə xərc tələb edəcək və yenə ucuzlaşacaq...

yazısı səh.11-də

### Qarabağa qanunsuz getmiş amerikalı jurnalist Azərbaycandan üzr istədi...

yazısı səh.13-də

### Rövnəq Abdullayev Cüdo Federasiyasının prezidenti seçildi

yazısı səh.2-də

### Bakı-Xırdalan-Sumqayıt qatarının marşrutu, hərəkət intervalı açıqlandı

yazısı səh.14-də

### Marşrut avtobusları ilə bağlı yeni qaydalar tətbiq olundu

yazısı səh.12-də

## Mərkəzi Bank aylıq dollar limitini 4 günə kimlərə satıb?

# "AVQUST DEVALVASİYASI" - İCRA BAŞÇISI 2 MİLYON DOLLAR ALDI

Bakıda bəzi iri şirkət rəhbərləri və hakimiyyətə yaxın varlı adamlar evlərinə az qala bank kisələri ilə dollar daşıyıblar; manatın yenidən dəyərdən düşəcəyi xəbəri məmur-oliqarxlara niyə və hansı məqsədlə ötürüldüyü sualı hələ ki açıq qalır...




yazısı səh.5-də

# Prezident Zakir Fərəcova elə bir tapşırıq verib ki...

Sumqayıtın yeni başçısının dövlət rəhbərliyinin təqdirini qazanması onun vəzifədə irəli çəkilməsinə səbəb olub; gözlər Fərəcovda - bacaracaqmı?

yazısı səh.9-da



*Siyavuş Novruzov:*

### "Siyahı ilə bağlı işlər yekunlaşıb..."

yazısı səh.8-də



### Razi Nurullayev daxili işlər və milli təhlükəsizlik nazirlərinə müraciət etdi

yazısı səh.4-də



*Pənah Hüseyn:*

### "Hansı şəraitdə seçkiyə getdiyimizin fərqindəyik"

yazısı səh.9-da



**Müsavat Partiyasının başqanı Arif Hacılı partiya üzvü Yusif Sultanovu 55 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Yusif bəy!**

**Sizi 55 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, can sağlığı, işlərinizdə uğurlar arzulayıram!**

**Siz 1988-ci ildə başlayan milli-azadlıq mübarizəsinə qoşularaq, xalqın haqq işini həmişə müdafiə etmisiniz. Siz 1995-ci ildən Müsavat Partiyasının üzvü kimi Müsavat ideologiyasının təbliğində və fəaliyyətinin genişləndirilməsində ciddi işlər görmüsünüz. Siz partiyanın Xaçmaz rayon təşkilatının fəaliyyətində, təşkilatın idarə olunmasında bacarıq və gücünüzü sərf edirsiniz. Partiyanın bütün kütləvi tədbirlərinin, mitinq və piketlərinin mütəmadi iştirakçısısınız.**

**Müsavat Partiyasının iştirak etdiyi seçkilərdə saxtakarlığın qarşısının alınması üçün mübarizə aparmısınız.**

**2003-cü ilin Prezident, 2005-ci ilin Parlament seçkiləri və sonrakı seçkilər zamanı baş verən proseslərdə üzləşdiyiniz təzyiqlər zamanı nümayiş etdirdiyiniz cəsarət və əqidəyə sədaqətiniz xüsusilə təqdirə layiqdir. Bu proseslər zamanı rejimin təqib və təzyiqləri Sizin mübarizə əzminizi daha da artırıb.**

**Siz mehriban, qayğıkeş bir ailə başçısı və atasınız. İnanıram ki, bundan sonra hər zaman övladlarınız və Sizi tanıyanlar Sizinlə qürur hissi keçirəcəklər.**

**Hörmətli Yusif bəy!**

**Sizi bir daha 55 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram!"**

# General Rasim Musayev Mehdiabadda dəfn edildi

**Sentyabrın 4-də ürək tutmasından dünyasını dəyişən polis generalı Rasim Musayev dəfn olunub. APA-nın xəbərinə görə, mərhumun Azərbaycan bayrağına bükülmüş cənazəsi bu gün Mehdiabad qəbiristanlığında halda torpağa tapşırılıb.**




Dəfn mərasimində daxili işlər naziri, general-polkovnik Ramil Usubov, müavinləri, nazirliyin idarə, şöbə və bölmə rəisləri iştirak ediblər.

Qeyd edək ki, Rasim Musayev Binəqədi Rayon Polis İdarəsi rəisinin birinci müavini, Daxili İşlər Nazirliyi İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisi, Sabunçu Rayon Polis İdarəsi 15-ci polis bölməsinin rəisi, 2005-2007-ci illərdə Cəlilabad Rayon Polis Şöbəsinin rəisi, 2007-2013-cü illərdə isə Gəncə Şəhər Polis İdarəsinin rəisi vəzifələrində çalışıb.

Rasim Musayevə 2011-ci ildə Azərbaycan prezidenti İlham Əliyevin sərəncamı ilə polis general-mayoru ali xüsusi rütbəsi verilib.

2013-cü il yanvarın 21-də Rasim Musayev daxili işlər nazirinin əmri ilə Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi vəzifəsindən öz xahişi ilə azad edilib.

2013-cü ilin fevral ayının 2-də DİN-in Daxili Təhqiqatlar İdarəsinin rəisi təyin edilib.



## Prezident Xızı və Siyəzənə səfər etdi

**Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Xızı və Siyəzən rayonlarına səfər edib. APA-nın xəbərinə görə, dövlət başçısı Xızı rayonunda suvarılacaq torpaqlarda meliorativ tədbirlərin başa çatdırılaraq yeni inşa olunan Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimində iştirak edib.**

Dövlət Neft Fondunun vəsaiti hesabına 2013-cü ildə "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində mühüm əhəmiyyət kəsb edən su elektrik stansiyası ilə birlikdə ümumi su tutumu 268 milyon kubmetr olan Taxtakörpü su anbarının, Taxtakörpü-Ceyranbatan və Vəlvələçay-Taxtakörpü kanallarının tikintisi müvəffəqiyyətlə başa çatdırılıb.

Prezident İlham Əliyev yaradılmış imkanlardan səmərəli istifadə edilməsi, növbəti layihələrin vaxtında və uğurla icra olunması ilə bağlı müvafiq nazirliklərin və qurumların rəhbərlərinə tapşırıq və tövsiyələrini verib.

İlham Əliyev həmçinin sentyabrın 4-də "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində Siyəzən rayonunda yeni suvarılacaq torpaqlarda meliorativ tədbirlərin başa çatdırılaraq Taxtakörpü-Ceyranbatan kanalından suvarma suyunun verilməsi mərasimində iştirak edib.

**APA-nın xəbərinə görə, dövlət başçısı İlham Əliyev Taxtakörpü-Ceyranbatan kanalından Siyəzən rayonunda yeni suvarılan torpaqlara suyun verilməsi qurğusunu işə salıb.**



# Zakir Qaralov Qəbələdə vətəndaşları qəbul etdi

**Sentyabrın 4-də Baş prokuror Zakir Qaralov Qəbələ Rayon Prokurorluğunun inzibati binasında Qəbələ, Şəki, Qax, Balakən, Oğuz və Zaqatala rayonlarından olan vətəndaşların qəbulunu keçirib.**

Baş Prokurorluqdan müsavat.com-a göndərilən məlumatda deyilir ki, qəbuldan əvvəl baş prokuror və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər: "Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 30-a yaxın vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib. Gün ərzində qəbul edilən vətəndaşların müraciətlərinin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb.

Vətəndaşların ərizə və şikayətlərində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları ilə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti üzrə müvafiq icra orqanlarında operativ həlli üçün təxirəsalınmaz zəruri tədbirlərin görülməsi təmin edilib. Qəbulda iştirak edən vətəndaşlar, belə görüşlərin keçirilməsinə və bölgə sakinlərinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə öz minnətdarlıqlarını bildiriblər.

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012)421-10-46; (012)323-55-21; (055)660-60-95;
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74; (055) 660-07-05



## Müdafiə Nazirliyi: ermənilər kəndləri boşaldır

**Düşmən son günlərdə verdiyi ağır itkilərin əvəzini dinc sakinlərdən çıxmağa çalışır. Müdafiə Nazirliyinin məlumatına görə, Ermənistan Silahlı Qüvvələrinin təxribatlarına cavab olaraq, son bir neçə gün ərzində Silahlı Qüvvələrimizin bölmələri bütün cəbhəboyu zonada düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə davamlı zərbələrindən ağır itkilərə məruz qalan erməni tərəfi qoşunların təmas xəttinə yaxın ərazilərdə yerləşən kəndlərimizi və dinc sakinlərimizi atəşə tutmağa başlayıb.**

Cəbhədə uğursuzluğa düçar olan Ermənistanın hərbi-siyasi rəhbərliyinin bu hərəkətinin qarşısının alınması məqsədilə Silahlı Qüvvələrimiz qəti və adekvat tədbirlər görürlər.

Azərbaycan Silahlı Qüvvələrinin düşmənə endirəcəyi daha ağır zərbələrin gücündən ehtiyatlanan Ermənistan rəhbərliyi guya hərbi təlimlərin keçirilməsi adı altında sərhədboyu zonada yerləşən 20-dək yaşayış məntəqəsindən kənd sakinlərini təxliyə etməyə başlayıb.

MN bildirir ki, kəndlərimizin və dinc sakinlərin düşmən tərəfindən atəşə tutulması dərhal dayandırılmayacağı təqdirdə Silahlı Qüvvələrimiz silahlanmada olan istənilən atəş sistemlərindən istifadə etməklə düşməni məhv edəcək.




## Rövnəq Abdullayev Cüdo Federasiyasının prezidenti oldu

**"Azərbaycan prezidenti İlham Əliyevin tövsiyəsi əsasında seçki keçirildi və mən Cüdo Federasiyasının prezidenti seçildim. Bu etimadı doğrultmağa çalışacam". Apasport.az saytının məlumatına görə, bunu Azərbaycan Cüdo Federasiyasının (ACF) yeni prezidenti Rövnəq Abdullayev deyib.**

ACF-nin İdarə Heyətinin iclasından sonra federasiyaya rəhbər seçilən Abdullayev KİV nümayəndələrinə bildirib ki, əsas məqsəd idmanın bu növünün inkişafına nail olmaqdı. Onun sözlərinə görə, yığmamızın uğurlu çıxışı və yeniyetmələrin bu idman növünə cəlb edilməsi üçün bütün lazımı şərait yaradılacaq.

O, 2016-cı ildə keçiriləcək Rio Olimpiadasına 1 ildən az vaxt qalmasına baxmayaraq, maksimum sayda lisenziya qazanacaqlarına inam ifadə edib.

Bununla yanaşı, Abdullayev bildirib ki, yığmaya əcnəbi baş məşqçinin gətirilməsi müzakirə mövzusu deyil.

"Qafqazinfo"nun tədbirdə iştirak edən əməkdaşının məlumatına görə, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynov açıqlamasında bildirib ki, sabiq prezident Füzuli Ələkbərov ərizə yazaraq istefa verib: "Bir müddət öncə cüdoçular prezidentə qurumdakı vəziyyət barədə şikayət ediblər. Prezident nazir Azad Rəhimova şəxsən tapşırıq verib ki, vəziyyətlə maraqlansın. Bu gün də bura Cüdo Federasiyasının prezidentini seçmək üçün yığışmışıq".

**Gənclər və idman naziri Azad Rəhimov çıxışında deyib ki, cüdo vacib idman növüdür. Burada bizim uğur qazanmış, nailiyyətlər əldə etmiş idmançılarımız var:** "Əfsuslar olsun ki, son vaxtlar ACF-də gedən işlər İdman Nazirliyini qane etmir. Mən tənqidi fikirlərlə çıxış etmək istəmirəm. Siz məqamları bizdən yaxşı bilirsiz. Vaxt gəlib və ACF-də dönüş olmalıdır. Yeni bir dönəm, cüdoda yeni bir qan yaratmaq lazımdır. Azərbaycan idman ölkəsidir. Bütün xalq cüdoçulardan qələbələr gözləyir. 20 ildən artıqdır ki, Federasiyanın prezidenti Füzuli Ələkbərov idi. Onun dövründə uğurlar da olub, düz getməyən işlər də . Son vaxtlar vəziyyət pis idi. Cənab prezidentə vəziyyətlə bağlı məruzə olunub. Bildirildi ki, dəyişiklik olmalıdır. Belə qərara alındı ki, Rövnəq Abdullayev Cüdo Federasiyasına prezident olsun".

## Sabir Tarverdiyev vəfat etdi

**Sumqayıt maşın bazarının sahibi, Milli Dövlətçilik Partiyasının sədri Sabir Tarverdiyev dünyasını dəyişib. Bu barədə müsavat.com-a onun yaxınları məlumat verib.**



S.Tarverdiyev uzun müddət sürən ağır xəstəlikdən dünən gecə saatlarında vəfat edib.

## Araz Aslanlı: "Namizədliyimlə bağlı təkliflər almışam"

**"Parlament seçkisində namizədliyimin irəli sürülməsi ilə bağlı müəyyən təkliflər var. Bu sözləri ötən parlament seçkilərində 66 saylı Biləsuvar seçki dairəsindən deputatlığa namizəd olmuş Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin (QAFSAM) sədri Araz Aslanlı söyləyib.**

Araz Aslanlı ötən seçkilərdə namizəd kimi iştirak etdiyini və çox uğurlu kampaniya apardıqlarını bildirib: "Keçmiş seçkilərdən uğurlu kampaniyalarla bağlı yaxşı təcrübəmiz var. Hazırkı müraciətləri yüksək təhsil və peşəkarlığa malik dostlarımızla birgə dəyərləndirəcəyik. Əgər seçkidə iştirak etməklə bağlı qərarımız olsa, uğurlu kampaniya apararaq qələbə çalacağıma və millət vəkili kimi ciddi töhfələr verəcəyimə inanıram. Hər dövrün öz şərtləri, bu şərtlərə uyğun olaraq seçicilərin də öz gözləntiləri olur. Mən də həm namizədliyimlə bağlı çoxsaylı müraciətləri, həm də indiki dövrün şərtlərini dəyərləndirib, son qərarı qəbul edəcəm. Məqsədim sadəcə xalqımıza, dövlətimizə faydalı olmaqdır. Harada faydamın daha çox toxunacağına inansam, fəaliyyətimi məhz ora yönəldəcəm".



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Jurnalistikadan parlamentə keçənlər...

## Dünya təcrübəsində onlarla örnək var; qələm əhlinin deputat olmasının xeyri nələrdir?

**Azərbaycanda parlament seçkilərinə start verilib. Əksər partiyalar deputatlığa namizədlərin siyahısını açıqlayıblar. Düşünənlər, tərəddüd mərhələsində olanlar, qərarsızlar... isə hər zamankı kimi var. Bu arada jurnalistlərin siyasətə, konkret olaraqsa, parlamentə gəlməsinə soyuq yanaşanlar da az deyil.**



Bunlardan biri ADP sədri Sərdar Cəlaloğludur ki, son müsahibələrindən birində "jurnalistin parlamentə namizədliyini verməsi özünə hörmətsizliyidir" deyib. S.Cəlaloğlu eyni zamanda iddia edib ki, "dördüncü hakimiyyət" hesab edilən bir qüvvənin hər hansı dövlət orqanında təmsil olunması onun hər şeydən öncə öz hakimiyyətini itirməsi və ya iki hakimiyyəti birləşdirməsi deməkdir. ADP sədri öz arqumentlərini güclü göstərmək üçün masştabı bir qədər də geniş götürüb və "bu, dünya çapında görünməyən bir hadisədir" deyib.

### Jurnalistikadan parlamentə keçidin 5 forması

**"Yeni Müsavat" isə bu günə qədər parlamentə, siyasətə gələn yolu jurnalistikadan keçən məşhur simaların dosyesini hazırlayıb. Həmin dosye Türkiyədən Rusiyaya, Ukraynaya, Amerikaya qədər bir çox ölkələri əhatə edir. Öncə bu keçidin səbəbləri və xarakter gedişləri barədə. Təhlillər göstərib ki, siyasətçilərin jurnalistikaya, jurnalistlərin isə siyasətə gəlişi hər zaman baş verib. Bu, sanki qarşılıqlı bir proses kimi tarixdə yer alıb. Amma bunun 5 keçid forması var:**

Bu halda jurnalist öz oxucu və tamaşaçı populyarlığını seçici səslərinə çevirir;

Sovet nomenklaturasına uyğun olaraq, bəzi postsovet ölkələrində partiyanın mətbu orqanının baş redaktoru avtomatik olaraq parlamentə daxil edilir;

Bəzən jurnalist siyasətə hansısa siyasətçinin və ya partiyanın, dövlət orqanının mətbuat xidməti kürsüsündən gəlir. Siyasət yolunda irəliləyən eks - jurnalist özünü siyasətdə tam sınamaq istəyəndə isə parlamentdə təmsil olunur;

Bu halda isə adam öz siyasi karyerasını qurur. Və son nəticədə məlum olur ki, sən demə, o, həm də eks jurnalist imiş, o qədər də populyar olmayan qəzetçi keçmişi olub;

Ən axırıncı üsul isə ondan ibarətdir ki, bəzən mətbu orqanlar qəsdən öz işçilərindən birinin namizədliyini irəli sürürlər. Bu halda məqsəd jurnalistin qələbə qazanması yox, seçki prosesindəki bütün gizlinləri, hətta çirkinlikləri işıqlandırmaq üçün içəriyə "desant" yerləşdirmək məqsədi daşıyır. Belə ki, namizəd olan jurnalist bu halda seçkinin bütün cilvələrini öz dərisində hiss edir və oxucuya da çılpaq həqiqəti çatdırır.

### Amerikalı jurnalist az qala vitse-prezident olacaqdı

Tarixən isə bu peşələr bir-birinə yaxın olublar. Yəni, qəzetçi də, siyasətçi də publikaya xitab edir, hər ikisi auditoriyaya hesablanıb. Yaxşı yazı yazan qəzetçi çox vaxt gözəl natiq olur. Eləcə də siyasətçilərin güclü arqumentlərlə dolu analitik yazıları onları fərqləndirir. Jurnalistikadan siyasətə keçid edən jurnalistçünsə iki variant var. Əgər o, uğursuz jurnalistdirsə, oxucu bu keçiddən heç nə itirmir. Yox əgər, söhbət yaxşı jurnalistdən gedirsə, bu halda həm oxucu, xalq qazanır, həm də onun özü. Son 10 ildə isə dünyada jurnalistlərin sürətlə siyasətə keçid etməsi tendensiyası özünü göstərir. Buna səbəb hər iki sahə arasındakı sərhədlərin şəffaflaşması, eləcə də oxuyan, siyasətlə maraqlanan şəxslərin sayında ciddi artım olmasıdır.

Amerika tarixi eks jurnalistlərin siyasətə keçid etməsini çox görüb. Bunlardan biri Kassius Kley olub. Linkoln hakimiyyəti dövründə cənab Kleyin vitse prezident kürsüsünə çıxmasına az qalmışdı. Eks konqresmen hətta bir neçə il Amerikanın Rusiyadakı səfiri olub.

### Türkiyədəki son parlament seçkilərində 13 jurnalist deputat oldu

Amerika nümunəsi barədə bir qədər sonra. Hələliksə qonşu ölkələrdəki jurnalist-deputatların siyahısına baxaq.

Türkiyədə 2015-ci il seçkilərində bir çox partiyalar deputatlığa namizədlər sırasında jurnalistləri göstəriblər. Aralarında Tuncay Özkan, Utku Çakırözer, Mustafa Balbay, Şamil Tayyar, Enis Berberoğlu və Eren Erdemin də olduğu qəzetçilər məclisə girməyə haqq qazandılar. "Sabah" qəzetinin yazarı Mahmud Övur, televiziya aparıcısı Tayfun Talipoğlunun arasında olduğu bəzi şəxslər isə məclisə girə bilməyib. Son nəticədə isə 3 partiyadan təxminən 13 qəzetçi seçki nəticəsində məclisə girməyə haqq qazanıb.

**CHP-nin jurnalist deputatları:**

Enis Berberoğlu, Barış Yarkadaş, Utku Çakırözer, Tuncay Özkan, Mustafa Balbay, Eren Erdem.

**AKP-nin jurnalist deputatları:**

Muhsin Kızılkaya, Markar Esayan, Mehmet Metiner, Hüseyin Yayman, Şamil Tayyar, Orhan Miroğlu

### Rusiya parlamentində və aşpa-dakı eks jurnalistlər

Rusiyada da mənzərə bundan fərqli deyil. Orda da Viktor Ukolov, Aleksand Qolub, Nikolay Knyajiskiy, İvan Bokiy, Oleq Yaşko və Vladimir Aryev, Andrey Şevçenko və Yuri Stes parlamentdə təmsil olunublar. Təbii ki, yolu jurnalistikadan keçib də, parlamentə gələnlərin siyahısı bununla bitmir. Zərif cinsin nümayəndələrindən də deputat kreslosuna yiyələnənlər olub. Olqa Gerasimyuk, İrina Qeraşenko və Yelena Bondarenko.

Məşhur jurnalist və media meneceri Nikolay Knyajitskiy də deputatlıq mandatı qazananlardandır. O əmindir ki, jurnalist peşəsinin daşıyıcılarından yaxşı siyasətçi ola bilər: "Avropa Parlament Assambleyasının müşahidəçiləri Koks və Kvasnevskiy də keçmiş jurnalistlər olub. Koks televiziya aparıcısı, Kvasnevski isə qəzet redaktoru olub. Onlar siyasətdə çox parlaq karyera qurublar və yüksək mərtəbələrə yüksəliblər".

### Yanukoviçlə yarım saat müsahibə götürdü və... parlamentə...

Ukrayna parlamentində də belə karyera yüksəlişi yaşayanlar çox olub. Keçmiş jurnalist, Regionlar Partiyasından olan Anna Germanın az qala spiker olması siyasət tarixinin arxivində yer alıb. 2004-cü ildə o, Azadlıq Radiosunun Kiyev bürosunda çalışırdı. Amma həmin vaxt baş nazir olan Viktor Yanukoviçlə yarım saatlıq müsahibə götürəndən sonra həyatı 180 dərəcə dəyişdi və ölkənin ikinci adamının mətbuat katibi oldu.

2013-cü ildə, bir neçə illik administrasiya karyerasından sonra German Ali Radaya qayıtdı və "mən parlamenti, orda jurnalistlərlə görüşməyi sevirəm".

Və təbii ki, Ukrayna Ali Radasının ən kaloritli eks jurnalisti Oleq Lyaşko olub. Radikal Partiyasının sədri zamanında jurnalistika ilə məşğul olub, "Azadlıq" qəzetinin baş redaktoru olub. Əslində isə sonuncu statusu onu siyasətə gətirib.

**Azərbaycanda isə hazırda parlamentdə bir neçə jurnalist var. Onlardan Aqil Abbası, Bəxtiyar Sadıqovu nümunə olaraq göstərə bilərik...**

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**



# 81 nəfər deputatlığa namizədliyini seçki komissiyalarına təqdim edib

## Müsavatın və daha 4 partiyanın səlahiyyətli nümayəndələri qeydə alındı

**Sentyabrın 4-də Mərkəzi Seçki Komissiyasının iclası olub. MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən verilən məlumat görə, iclasda Müsavat Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Ana Vətən Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası və Azərbaycan Sosial Demokrat Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri qeydə alınıb. Yeni Azərbaycan Partiyası və Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələrinin siyahısına isə əlavələr edilib.**

MSK-nın iclasında həmçinin Milli Məclisə seçkilərdə Klassik Xalq Cəbhəsi Partiyası, Azərbaycan Xalq Partiyası, Azadlıq Partiyası, Aydınlar Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası, Bütöv Azərbaycan Partiyası, Vətəndaş və İnkişaf Partiyasının bir araya gəldiyi "Azadlıq-2015" siyasi partiyalar blokunun qeydə alınması məsələsi müzakirəyə çıxarılıb. Məsələ səsverməyə çıxarılıb və "Azadlıq-2015" siyasi partiyalar bloku qeydə alınıb.

MSK sədri Məzahir Pənahov iclasda məlumat verib ki, bu günə qədər 48 seçki dairəsi üzrə 81 nəfər deputatlığa namizədliyi irəli sürüb. M. Pənahov bildirib ki, hələ ki siyasi partiyalar namizədləri ilə bağlı dairə seçki komissiyalarına müraciət etməyiblər.

Siyasi partiyalar isə deputatlığa namizədlər siyahısına əlavələr etməkdə davam edirlər. Dünən AMİP Siyasi Şurasının iclasında 2015-ci il Milli Məclis seçkilərdə partiyanı təmsil edəcək növbəti 10 nəfər şəxsin namizədliyi təsdiq edilib. Siyasi Şuranın iclasında eyni zamanda AMİP səlahiyyətli nümayəndələri və AMİP maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri təsdiq olunub və qanunvericiliyə müvafiq olaraq bütün sənədlərin Mərkəzi Seçki Komissiyasına təqdim olunması qərara alınıb. Həmçinin qərara alınıb ki, digər dairələr üzrə irəli sürülmüş namizədlərin təsdiq olunması Siyasi Şuranın növbəti iclasının gündəliyinə salınsın. Qərara əsasən, aşağıda adları qeyd olunan şəxslərin namizədliyi AMİP tərəfindən irəli sürülüb: Həsənov Yəhya Məhəmmədəli oğlu-8 saylı Binəqədi birinci seçki dairəsi, Əliyev Aydın Niftalı oğlu-21 saylı Nəsimi birinci seçki dairəsi, Hüseynova Firuzə Nəriman qızı- 24 saylı Nizami birinci seçki dairəsi, Əlizadə Arzuxan Baxşəli oğlu-26 saylı Sabunçu birinci seçki dairəsi, Musayev Təbriz Səməndər oğlu-45 saylı Abşeron seçki dairəsi, Dadaşov Gündüz Dadaş oğlu-54 saylı Şabran-Siyəzən seçki dairəsi, Qurbanov Məhəmməd Əliağa oğlu-55 saylı Xaçmaz şəhər seçki dairəsi, Hüseynli Teyyub Həşim oğlu-88 saylı Göyçay seçki dairəsi, Hacıyev Mirzahid Miri oğlu- 108 saylı Ağstafa seçki dairəsi, Əlicanlı Nigar Hacıbaba qızı-112 saylı Qax seçki dairəsi.

**Vəhdət Partiyasının sədri Tahir Kərimli** isə parlament seçkilərində iştirakı ilə bağlı modern.az-a açıqlamasında deyib ki, partiya seçkilərdə az sayda, lakin daha çox şansı olan namizədlərlə iştirak edəcək: "Namizədlərimizin siyahısını ayın 10-na kimi açıqlamağı nəzərdə tuturuq. İstəyirik ki, daha çox şansı olan namizədlərlə seçkilərə gedək. Bəzi partiyalarla danışıqlar aparırıq ki, namizədlərin birgə müdafiəsini təşkil edək. Bunların arasında həm müxalifət, həm də iqtidaryönlü partiya var. Biz vaxtilə parlament seçkilərində 46 namizədlə iştirak etsək də, uğur qazanmamışdıq. Ona görə daha az və daha şanslı namizədlərlə seçkilərə getməyi planlaşdırırıq".

**Tahir Kərimli özünün namizədliyindən də danışıb:** "Bununla bağlı hələ ki, qəti fikrim yoxdur. Açığını deyim ki, namizədliyimi irəli sürəcəyim dairəni müəyyən etməkdə çətinlik çəkirəm. Ola bilər ki, Bakı şəhərində, ya da əvvəl verdiyim dairələrdən namizədliyimi irəli sürüm. Əvvəllər bir dəfə İsmayıllı rayonundan seçilmişdim. Lakin Şamaxı, Ağsudan seçilə bilməmişəm. Ola bilsin ki, Baş Məclisin iclasına kimi namizədliyimi irəli sürəcəyim dairəni müəyyənləşdirim".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 196 (6224) 5 sentyabr 2015

# Razi Nurullayev daxili işlər və milli təhlükəsizlik nazirlərinə müraciət etdi

## Yeni yaradılan AXCP-nin tərəfinə keçən Bəhruz Tağızadənin müraciəti yayılıb; onun Əli Kərimlinin tərəfdarlarının şantaj və təhqirləri altında belə addım atdığı deyilir

**AXCP-nin Nərimanov şöbəsinin sədr müavini Bəhruz Tağızadənin Razi Nurullayevin rəhbərlik etdiyi Etimad Qurultayı üzrə Təşkilat Komitəsinə keçməsi barədə xəbər vermişdik. O, istefasını partiyada Əli Kərimlinin yaratdığı diktator idarə üsuluna olan etirazı ilə əlaqələndirmişdi.**

**O, istefasının ardından sentyabrın 3-də sosial şəbəkələrdə daha bir təəccüb doğuran status paylaşıb. B.Tağızadə bildirib ki, R.Nurullayevi ifşa etmək üçün onun tərəfinə iki günlüyə keçib:** “Razi Nurullayevin yanına gedəcəyimi, əvvəlcədən dostlarım Məmməd İbrahimə, Elçin Şükürlüyə və Bəxtiyar Hüseynə də demişdim. Demişdim ki, gedib onların arasına girəcəm, görüm nə işlərlə məşğuldurlar.

O müsahibəni də mən verməmişdim. Bəzi sözləri istisna olmaqla. Çünki bilirdim ki, o sözləri deməsəm, inanmayacaqlar. Ancaq sonra gördüm ki, mənasız işdir. Gördükləri iş, qeyri-ciddidir. Mənim partiyam AXCP, liderim də sədr Əli Kərimlidir". Qeyd edək ki, müraciətin video görüntüsü də sosial şəbəkələrdə yayılıb.

Musavat.com-a bilgi verilib ki, R.Nurullayevin tərəfdarlarının arşadırmalarından sonra məlum olub ki, B.Tağızadə statusu yazmağa məcbur edilib. AXCP rəhbərliyi onu şantaj edəcəyi ilə hədələyib.

**Razi Nurullayev baş verənlərlə bağlı Daxili İşlər və Milli Təhlükəsizlik Nazirliyinə müraciət edib:** “İnsan ləyaqətini alçaltmaq, onu təhqir etmək, aşağılamaq, şəxsiyyətini sındırmaq ən böyük cinayətdir. Allah da bu cinayətləri bağışlamır. Dünən AXCP-nin Əli Kərimlinin rəhbərlik etdiyi qanadının Nərimanov şöbəsinin sədr müavini Bəhruz Tağızadənin cebhe.info-da müsahibəsi yayılmış və o cənab Əli Kərimlinin siyasətini sərt tənqid etmişdi. Üstündən bir neçə saat keçəndən sonra Bəhruz Tağızadə Facebook səhifəsində video-müraciət yaymış və "liderim Əli Kərimlidir" demişdi. Həmçinin, qeyd etmişdi ki, dostları ilə məni “şantaj və ifşa” etmək üçün razılaşdırılmış addım atmışdı. Təbii ki, onun video-müraciətindəki çıxışı Bəhruz Tağızadənin çox ciddi şəkildə şantaj olunduğunu göstərirdi. Video və Bəhruz Tağızadənin ehtimal olunan şantaj olunaraq dedikləri ilə bağlı geniş məlumatı “Azadlıq” qəzeti dərc edib".



**Razi Nurullayev:** “Onun özünəqəsd halına gətirilməsi...”

**R.Nurullayev B.Tağızadənin statusdan sonra onun tərəfdarları ilə yazışmalarının olduğunu da qeyd edib:** “Hörmətli Bəhruz Tağızadənin yaydığı video-müraciətdən sonra onun tərəfdarlarımızla Facebook yazışması var və biz onun screenlərini saxlamışıq. O, bizi anlaqlı olmağa və onu başa düşməyə dəvət edir. İnsan demək istəyir ki, onu elə şantaj ediblər ki, o ya bizdən imtina, ya da özünə sui-qəsd etməli idi. Bizə şantajın bəzi məqamları aydındır. Amma, biz Bəhruz Tağızadənin şəxsiyyətini alçaltmamaq, onu qınaq və təhlükədən qorumaq, eyni zamanda ailəsi və övladları qarşısında başını dik tutub gəzmək şansını saxlamaq məqsədilə bildiklərimizi heç zaman ictimaiyyət üçün açıqlamayacağıq. Eyni zamanda, qoy Bəhruz bəy arxayın olsun ki, biz onun video, audio və sosial şəbəkə yazışmalarını, yazdığı SMS-ləri də mətbuatda verməyəcəyik.

İnsan şəxsiyyətini alçaltmaq, onu təhqir etmək, şantaja məruz qoymaq və ailələr dağıtmaq bizlik deyil. Amma, Bəhruz bəyin və bundan sonra onlarla qurbana çevriləcək insanları Əli Kərimli və onun söyüş və təhqir zavodunda beyinləri yuyulanlarına “zombi”ləşdirilmiş adamlarından qorumaq üçün hökumətə müraciət etmək qərarına gəldik.

Mən Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə və Daxili İşlər Nazirliyinə, o cümlədən nazir Eldar Mahmudov və Ramil Usubova müraciət edirəm. Cənab Bəhruz Tağızadənin şantaj olunması və az qala özünəqəsd halına gətirilməsi məsələsinin ciddi araşdırılmasını rica edirəm. Məsələ, Azərbaycan vətəndaşının şantaj olunması, ailəsi və uşaqları ilə təhdid edilməsi, iradəsinə zidd video-müraciət yayılmasındadır. Məsələnin çox həssas olduğunu nəzərə alaraq, adı çəkilən nazirlikləri dərhal fəaliyyətə keçməyə və Bəhruz Tağızadəni istintaq müddətində Əli Kərimlinin tərəfdarlarından təcrid etməyə çağırıram. Eyni zamanda, Bəhruz Tağızadənin son bir neçə gündə telefon danışıqlarının məhkəmənin qərarı ilə istintaqa təhvil verilməsini xahiş edirəm. Adı çəkilən şəxsin məlum hadisədən sonra mənimlə də telefon danışığı reallaşıb və onun da istintaqa təqdim edilməsini tələb edirəm.

Bildirmək istəyirəm ki, Bəhruz Tağızadənin yazışmalarının bizdə olan sürətləri, özünün razılığı ilə çəkilmiş video və audio materiallarını, yazdığı SMS-ləri və digər materialları da istintaqa təqdim etməyə hazırıq".

**Etimad Qurultayı üzrə Təşkilat Komitəsinin sədri hər gün sosial şəbəkələrdə Ə.Kərimlinin tərəfdarlarının təhqirlərinə məruz qaldıqlarını bildirib:** “Hər gün sosial şəbəkə üzərindən yüz dəfələrlə təhqir olunuruq. Bu təhqirləri və insan ləyaqətini alçaldan yazıları çox halda saxta profillər vasitəsilə həyata keçirirlər. Biz onların da sürətlərini saxlayırıq və istintaq orqanlarından xahiş edirik ki, təhqir yağdıran saxta profillərin arxasında dayan şəxsləri də ifşa etsinlər. Biz əlimizdə olan faktları da istintaqa verməyə hazırıq.

Bir daha qeyd etmək istəyirəm ki, insan ləyaqəti və şəxsiyyəti toxunulmaz olmalıdır. İnsan ləyaqətini alçaldanlara qarşı ciddi cəza görülməsini tələb edirik. Ümidvar olduğumu bildirmək istəyirəm ki, hansı düşərgəni təmsil edib-etməməyimizdən asılı olmayaraq, müraciətimə ciddi yanaşacaqsınız. Baxışlarımız, siyasi düşərgəmiz, yolumuz və əqidəmiz fərqli olsa da, bizi birləşdirən dəyər var. Bu da Konstitusiyanın hər bir vətəndaşa vəd etdiyi ədalət. Bunu əsas tutaraq, hərəkət edəcəyinizə ümidvarıq".

❑ **Cavanşir ABBASLI, musavat.com**

# Sabiqlər seçkiyə qatılacaqmı?

## Yaqub Məmmədov “yox” deyir, Eldar Namazov isə susur



Yaqub Məmmədov



Eldar Namazov

**Azərbaycanda keçiriləcək 1 noyabr parlament seçkilərində iştirak etmək istəyənlərin sırasında ölkənin tanınmış ictimai və siyasi təşkilatlarının nümayəndələri ilə yanaşı, müstəqil şəxslər də çoxluq təşkil edir. Ölkədə populyarlığına görə fərqlənən şəxslərin seçki kampaniyasına qatılması həm də seçkiyə ictimai marağın artması, rəqabət mühitinin yaranması anlamını verir. Ötən seçkilərə qatılan şəxslərin bir çoxu isə nəticəyə ümid bəsləmədikləri üçün bu kampaniyanı sadəcə müşahidə etməyə üstünlük verir.**

Müstəqilliyimizin ilk illərində qısa zaman çərçivəsində də olsa, ölkəyə rəhbərlik etmiş, prezidentin səlahiyyətlərini icra etmiş və Ali Sovetə sədrlik etmiş professor Yaqub Məmmədov da aktiv siyasətə qayıtmağı düşünmür. 2005-ci il parlament seçkilərində “YES” Blokunun namizədi kimi seçkilərdə iştirak edən Y.Məmmədov bu seçkiyə qatılmayacaq.

**Professor Yaqub Məmmədov** “Yeni Müsavat”a açıqlamasında dedi ki, namizədliyini irəli sürmək fikri yoxdur: “Seçki yoxdur axı. Seçki olsa, iştirak edərdim”. Y.Məmmədov ötən seçkilərdə təmsil olunduğu “Yes” Blokunun üzvləri il də əlaqə saxlamadığını söylədi: “Onlardan da bir əlaqə yoxdur. "Yes" Bloku çoxdan dağılıb-gedib. O zaman Vahid Əhmədovla Əli Məsimli ordan deputat seçilmişdilər. İndi bilmirəm, namizədliklərini irəli sürəcəklərmi, xəbərim yoxdur".

Uzun müddət **Prezident Administrasiyasında vəzifə tutmuş, “YES” Blokunun digər üzvü, Azərbaycan Naminə İctimai Forumun prezidenti Eldar Namazov**un da münasibətini öyrənmək istədik. Ancaq E.Namazov mətbuata hər hansı açıqlama vermək fikrində olmadığını bildirdi və xahiş etdi ki, jurnalistlər onu narahat etməsinlər.

❑ **Cavid TURAN**

# Ədliyyə Nazirliyi ADR üzvlərinin müraciətini təmin etmədi

## Müsavatın qurultayının nəticələrini ləğv etdirmək istəyənlər isə sonadək gedəcəklərini bəyan etdilər

**Sentyabrın 4-də Ədliyyə Nazirliyi Müsavat Partiyasının VIII qurultayının nəticələrinin ləğvi ilə bağlı bir qrup keçmiş müsavatçının müraciətinə cavab verib. Nazirliyin cavabında bildirilib ki, partiyanın qurultayı ilə bağlı qeydiyyata alınmış dəyişikliklərin (sənədlərin) ləğvi üçün şikayətçilər məhkəməyə müraciət etməlidirlər.**

Şikayət ərizəsinin müəlliflərindən biri olan Əlövsət Əhədoğlu APA-ya bildirib ki, sentyabrın 4-də Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsindən onun ünvanına cavab məktubu daxil olub və məktubda məhkəməyə müraciət edilməsi məsləhət görülüb. Ə.Əhədoğlu qurultayın nəticələrinin ləğvi üçün bütün imkanlardan istifadə edəcəklərini deyib.

Müsavat Partiyasının təşkilat şöbəsinin müdiri Razim Əmiraslanlı isə “Yeni Müsavat”a açıqlamasında bildirib ki, Ədliyyə Nazirliyinin cavab məktubu faktiki olaraq ərizəçilərin müraciətinə mənfi cavab kimi qəbul edilməlidir: “Çünki onların qanunsuz, əsassız tələbləri qəbul edilməyib. Bir neçə ay öncə Ədliyyə Nazirliyi Müsavat Partiyasının 8-ci qurultayının sənədlərinə baxıb və heç bir problem olmadığından təsdiq edib. Nazirliyin ərizəçilərə cavabından da bir daha aydın oldu ki, Müsavat Partiyasının qurultayı nizamnaməyə və qanunlara uyğun keçirilib”.

**Qeyd edək ki, Müsavatın qurultayının nəticələrinin ləğvi xahişi ilə Ədliyyə Nazirliyinə Azərbaycan Demokratiya və Rifah Hərəkatının keçmiş müsavatçılar olan 11 nəfər üzvü müraciət etmişdi.**

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 196 (6224) 5 sentyabr 2015

## Mərkəzi Bank aylıq dollar limitini 4 günə kimlərə satıb?




# “Avqust devalvasiyası” - icra başçısı 2 milyon dollar aldı

### Bakıda bəzi iri şirkət rəhbərləri və hakimiyyətə yaxın varlı adamlar evlərinə az qala bank kisələri ilə dollar daşıyıblar; manatın yenidən dəyərdən düşəcəyi xəbəri məmur-oliqarxlara niyə və hansı məqsədlə ötürüldüyü sualı hələ ki açıq qalır...

**Avqustun sonunda manatın yenidən devalvasiya olacağı barədə xəbərlər ölkənin pul-maliyyə sektorunda ciddi gərginlik yaratmışdı. Mərkəzi Bankın “həm nağd, həm də qeyri-nağd valyuta üzrə bankların tələbatı tam təmin olunub və yeni ehtiyacların ödənilməsi üçün də kifayət qədər valyuta ehtiyatı mövcuddur” bəyanatı valyutadəyişmə məntəqələrində ajiotajı qismən yatırdı. Mərkəzi Bankın bunun ardınca yaydığı məlumat isə yaranmış gərginliyin heç də təsadüfi olmadığını göstərdi. Məlum oldu ki, ajiotajın yaşandığı 4 gündə Mərkəzi Bank ölkə banklarına düz 900 milyon dollar satıb. Bu isə aylıq göstəricidən də çoxdur. Yəni Mərkəzi Bankın bir aya banklara verdiyi vəsait 4 gündə alınıb...**

Aydındır ki, ajiotaj və dollara tələbatın kəskin artmasının bir səbəbi də qəfil devalvasiyadan gözü qorxmuş əhalinin əlində və ehtiyatında olan milli valyutanın ABŞ dollarına konvertasiya etmək istəyi ilə bağlı idi. Amma bu qədər iri məbləği əhalinin tələbatı üçün ayrıldığı və əhalinin aldığı fantastik görünə bilərdi. Aydın idi ki, ortada Azərbaycanın varlı təbəqəsinin “dollara sevgisi” dayanırdı. Həmin günlər iri bankların valyutadəyişmə məntəqələrinin qarşısında saatlarla növbə çəkən qalstuklu sürücülərə, Bakının ən modern maşınlarının sahiblərini görmək mümkün idi. Təsadüfi deyil ki, fevralın 21-də manat ucuzlaşdıqdan sonra prezident İlham Əliyev bu məsələyə toxunaraq maraqlı açıqlama verməişdi. Prezident demişdi ki, bu vəziyyətdən bəzi spekulyantlar, möhtəkirlər, natəmiz adamlar əsassız qazanc əldə etmək üçün istifadə ediblər. “Sadəcə, bir rəqəmi sizə deyə bilərəm. Bir neçə gün ərzində günə azı 500 milyon dollar bazardan alınıb” deyə, prezident bildirmişdi. Manat “avqust devalvasiyası” təhlükəsi ilə üzləşdikdə də eyni vəziyyət yaşanıb, hətta daha 400 milyon dollar əlavə bazara buraxılıb. Sonrakı günlər valyuta bazarında stabilliyin yaranması da onu göstərdi ki, xüsusilə paytaxt Bakıda valyuta qıtlığına səbəb müəyyən varlı təbəqənin əllərində olan nağd manat vəsaitlərini bazara çıxararaq külli-miqdarda dolları almasıdır.

Redaksiyamıza daxil olan məlumata görə, Bakıda bəzi iri şirkət rəhbərləri və hakimiyyətə yaxın varlı adamlar evlərinə az qala bank kisələri ilə dollar daşıyıblar. Manatın yenidən devalvasiya olacağı barədə xəbərlərin məmur-oliqarxlara və onlara yaxın varlı şəxslərə niyə və hansı məqsədlə ötürüldüyü sualı hələ ki açıq qalır. Çünki valyuta bazarında panikanı məhz onlara ötürülmüş “mötəbər informasiya” yaradıb və bir çoxları da bu xəbərlərə inanaraq əllərində olan manatı təcili dəyişdirməyə başlayıblar.

Daha bir sensasion məlumat isə Gəncənin icra başçısı Elmar Vəliyevlə bağlıdır. Bir mənbənin iddiasına görə, E.Vəliyevin tapşırığı ilə bankların birindən ona məxsus olduğu deyilən 2 milyon manat dollarla dəyişdirilib. Gəncənin polis rəisi Faiq Şabanovun da təxminən 500 min manatı dollara çevirib.

Əlbəttə, hamı kimi vəzifəli adamların da pul saxlamaq, onu istədiyi kimi xərcləmək və istədiyi valyutaya dəyişmək haqqı var. Amma nəzərə almaq lazımdır ki, maliyyə bazarında bu cür panikaların zərbəsi günahsız əhaliyə dəyir. Camaat dollarla kredit borcunu düşünür, bir qismi əlində olan sonuncu ehtiyatı belə dollara çevirmək üçün saatlarla növbədə durur, əsəb gərginliyi və mənəvi sarsıntı keçirir...

**Ən əsası, bu cür vəziyyətlərdə ölkənin maliyyə təhlükəsizliyinə ciddi ziyan dəyir.**

❑ **“Yeni Müsavat”**

# Video-şantaj daha heç kimi təəccübləndirmir

## Mehman Əliyev: “Siyasətçi bu cür həyat sürməməlidir”

**Son illərdə dünyada siyasətçilərin şantaj olunması adi hala çevrilib. Xüsusilə, bu işdə gizli video mühüm rol oynanır. Rəqib siyasətçilərin bir-birilərini sıradan çıxarmağın, cəmiyyətin gözündən salmağın ən asan yolu intim görüntüləri özündə əks etdirən videoların yayılmasıdır.**




Xalq arasında da bu cür videoların ortaya çıxarılmasına münasibət heç də birmənalı deyil. Avropa ölkələrinin əksəriyyətində siyasətçinin bu yataq görüntülərinin yayılması onun xalq arasında nüfuzuna bir o qədər də ciddi təsir etmir. Çünki həmin cəmiyyətlərdə belə hallar adi qarşılanır.

Cəmiyyətimizdə siyasətlə məşğul olan bəzi şəxslərin də indiyə qədər videolarının yayıldığının şahidi olmuşuq. Türkiyə siyasətində də bu variantdan geniş istifadə olunur. Cümhuriyyət Xalq Partiyasının sabiq sədri Dəniz Baykal və prezident Ərdoğanın qardaşı Mustafa Ərdoğanın məlum videolarını misal çəkə bilərik. Məhz bundan sonra nüfuzu artmaqda olan Dəniz Baykal siyasətdən getdi. Türkiyə hakim dairələrinin bu işdə əlinin olduğu sirr deyil. Ərdoğanın qardaşının isə F.Gülənlə münasibətlərin gərgin dövründə videosunun çıxması bir çox mətləblərdən xəbər verdi.

**“Turan” İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** hesab edir ki, bu cür videolar KİV-lər tərəfindən yayılanda, cəmiyyətdə normal hala çevrilir: “Azərbaycanda bu cür hal vaxtı ilə Qənimət Zahidlə başladı. Xədicə İsmayıl və müəyyən məmurlar məsələsi də sonradan ortaya çıxdı. Xədicə İsmayılla bağlı baş verəndə o, bildirdi ki, bunu təzyiq kimi görür və geri çəkilməyəcək. Xədicənin mövqeyi kifayət qədər bəyənilən oldu. Hətta dini icma arasında belə ona tərəf çıxanlar oldu. Hakimiyyət bu tipli şantajlarla onun cəmiyyət tərəfindən dəstəkləndiyini gördü. Ona görə də, bu kampaniya demək olar ki, dayandırıldı. Artıq ictimai rəydə bunun mənası qalmayıb. Çünki normal hal olub. Bütün bunlar şəxsin özünə aiddir. Məlumat gedərkən onun təsir imkanları nəzərə alınmalıdır. Həmin şəxsin ailəsinə və cəmiyyətə necə təsir edəcək. Hesab edirəm ki, ictimaiyyətə təsiri azdır. Şəxsin özünə təsir edə bilər. Mehman Əliyev və başqaları üçün əhəmiyyəti yoxdur. Hansısa deputat, nazir, jurnalist kiminlə yaxın olursa, mənim üçün əhəmiyyəti yoxdur. Sensasiya deyil”.

**“Turan” rəhbəri bu cür videoların yayılmasını siyasi əxlaqsızlıq adlandırdı:** “Hesab edirəm ki, bu siyasi məsələyə aid deyil. Hər bir məsələ tədbirli xarakter daşıyır. Bunun arxasında nə durur? Məhəbbət və başqa amillər ola bilər. Çox qəliz məsələdir. Kimsə gündə əxlaqsız qadınlarla görüşür, pul verir. Bunlar da başqa məsələlərdir. Amma siyasətçi əlbəttə ki, bu cür həyat sürməməlidir. Mən şəxsən belə görürəm. Əgər sən siyasətçisənsə, belə işlərdən kənar olmalısan. Vaxtı ilə belə hadisələr baş verdikdə, sensasiya olardı. Təəssüf ki, bu gün adi hala çevrilib”.

❑ **Cavanşir ABBASLI**

# Milyonların pənah yeri - Avropa



**Xalid KAZIMLI**

**Türkiyədə, Egey sahillərində dalğaların vurub sahilə çıxardığı iki azyaşlı oğlanın cəsədinin şəkli milyonları qüssələndirib. İki-üç gündür bütün Avropa, hətta bütün dünya bu acı mənzərədən danışır.**

Son beş ildə İraqı, Suriyanı, Liviyanı, Misiri ağuşuna alan vətəndaş müharibələrində bundan da dəhşətli epizodlar olub, bundan da acı fotolar paylaşılıb.

Ancaq insanları o körpə, məsum uşaqların dəniz sahilindəki görüntüləri ağlatdı. Nəyə görə? Ona görə ki, o uşaqlar fotogenik idilər, çöhrələri nurluydu, məsum idilər, görünüşlərindən hansı irqə, hansı millətə mənsub olduqları bilinmir, eləcə şəkillərdən adama duru gözü balacalar baxır.

Milyonlarla insan öz övladını o uşaqların yerinə qoydu və acı çəkdi.

Təkcə bu il Suriyada minlərlə uşaq ölüb, öldürülüb. Bu ölkənin insanları o qədər ağrı-acı, iztirab, məhrumiyyət, məşəqqət çəkiblər ki, artıq dünya başlarına dar gəlir. Adamlar heyvani bir instinktlə balalarını götürüb Suriya cəhənnəmindən xilas olmağa çalışırlar.

Elə dəniz sahilindən meyiti tapılan 3-4 yaşlı qardaşların valideynləri də belə fikirləşirdilər, məhz bu uşaqları xilas etmək üçün əvvəlcə Türkiyəyə sığınmışdılar, sonra Yunanıstanın Kos adasına pənah aparacaq, ordan da Avropaya üz tutacaqdılar.

Olmadı. Binəsib qardaşlar başqa həmvətənləri və həmyaşıdları kimi sağ-salamat şəkildə Avropaya adlaya bilmədilər.

Bir onlar deyil, Suriyada, İraqda səmum yeli kimi sovrulan labüd bəlalardan qaçmaq istəyən yüzlərlə insan ölümlə Aralıq dənizinin ılıq sularında üzləşirlər. Az qala hər gün miqrantları daşıyan bərələrin, gəmilərin, rezin qayıqların dənizdə batdığına dair xəbərlər gəlir.

Avropanın humanist təşkilatları nə qədər həyəcan təbili çalsalar da, nə qədər kömək etsələr də, dövlətləri idarə edənlər qaçqınları kütləvi şəkildə qəbul etmək istəmirlər.

Əslində onları qınamaq mümkün deyil. Milyonlarla qaçqını qəbul edib yerləşdirmək bir ölkə üçün sosial-iqtisadi, eləcə də demoqrafik planda fəlakət deməkdir.

Öz həmvətənlərimizdən ibarət 600-700 min qaçqın-köçkünü yerləşdirəndə bu ölkənin dizi yerə gəlmişdi. Uzun illər İran, Türkiyə kimi qonşu və qohum ölkələrin, Qızıl Aypara və Qırmızı Xaç kimi beynəlxalq təşkilatların köməyi ilə böhran vəziyyətindən birtəhər çıxa bildik.

Ölkəmizdə qaçqın-köçkün problemi hələ də qalmaqdadır. Yəni Avropanın Şərqin bütün dövlətlərindən gələn qaçqınlara həvəslə qucaq açmasını gözləmək sadəlövhlük olar.

İsveçdə yaşayan soydaşlarımız bildirirlər ki, son illərdə təkcə bu ölkəyə bir milyona yaxın qaçqın gəlib. Onların çoxu ərəb-müsəlman ölkələrindən, Afrika dövlətlərindən, Banqladeş, Pakistan və Əfqanıstan kimi Asiya ölkələrindən qaçaraq İsveçə sığınıblar.

Dünya əhalisinin az qala yarısını təşkil edən Çin, Hindistan və İndoneziyada yüz milyonlarla Avropaya qaçmaq, orda yaşamaq istəyən insan var. Bütün dünya ya Avropada, ya da Avropadakı kimi yaşamaq istəyir.

Bu isə mümkünsüzdür. Bütün Avropa dövlətlərin bir yerdə ərazisi Rusiyanın ərazisinin üçdə biri qədər deyil.

Avropanın dünya əhalisinin yarısını özündə yerləşdirmək, yedirtmək, işlə, evlə təmin etmək imkanı yoxdur.

Bütün ölkələrdən daşlanıb qoca qitəyə sığınmaq istəyənlərin arzusu reallaşsa, ümumdünya xaosu qaçılmaz olar.

Buna görə də Avropanı qınamağın yeri yoxdur. Sadəcə, başqa ölkələrdə də Avropadakı firavanlığı, iqtisadiyyatı, dürüst idarəçiliyi, təhlükəsizliyi bərqərar etmək lazımdır. Hər kəs öz doğulduğu ölkədə normal, asudə yaşaya bilsə, kütləvi şəkildə sərhəd qapılarında boynubükük, naçar qalmaz, okeanlarda batıb yırtıcı balıqlara yem olmaz.

Şərqdə qaydadır, danışanda heç kəs “kafir Avropa”nı bəyənmir, pisləyir, lənətləyir, amma cana təhlükə yarananda hamı ora sığınmaq istəyir. Vəziyyət düzələndə isə xüsusi imtiyazlar tələb edir, halal-haram söhbətinə başlayır, avropalıları öz vətənlərində sıxışdırmağa çalışırlar.

Ona görə də bu gün dünya əhalisi dəniz sahillərində meyiti tapılan körpələrdən ötrü üzülə-üzülə belə bir sual səsləndirir: nəyə görə vətəndaş müharibəsi gedən müsəlman ölkələrinin vətəndaşları müharibə getməyən başqa müsəlman ölkələrinə pənah aparmırlar?

**Sualın cavabını budur: həmin dövlətlərdə onları istəyən yoxdur. “Müsəlman qardaşlığı” söhbəti boşboğazlıqdır.**

YENİ MÜSAVAT
N 196 (6224) 5 sentyabr 2015



# Kadrlar üçün təmizlik testi

Zahid SƏFƏROĞLU
zahid.safaroglu@box.az

**Azərbaycanda icra başçılarının növbəti hay-küylü yerdəyişməsi (rotasiyası) baş verirkən bizimlə oxşar durumda olan Ukraynada sakitcə və gerçək kadr islahatları davam edir. Prezident Pyotr Poroşenko bacarıqlı və cəmiyyətdə müsbət reputasiyası ilə tanınan şəxsləri açar vəzifələrə yerləşdirmədən ölkənin xilasının mümkün olmayacağını hər halda yaxşı dərk edir.**

O üzdən Poroşenko hətta xaricdəki təcrübəli kadrları, siyasətçi və iqtisadçıları da Ukraynaya dəvət eləməkdən çəkinmir, onlara vətəndaşlıq verir ki, Rusiyanın təcavüzü nəticəsində yaranmış indiki böhranlı durumdan xalqı və dövləti maksimum qısa müddətdə, minimum itkilərlə çıxara bilsin.

Onlardan biri də Odessa vilayətinin qubernatoru, Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilidir. Yeni vəzifədə olduğu cəmi bir neçə ay ərzində Saakaşvili az iş görməyib. O sırada vilayətdə korrupsiyanın kökünün kəsilməsi yönündə radikal addımlar atıb və atmaqdadır. Artıq mühüm nəticələr də var. Əks təqdirdə gürcü siyasətçinin Ukraynanın baş naziri təyin edilməsi üçün ölkə boyu petisiya (imzatoplama kampaniyası) başlamazdı.

Deməli, Saakaşvili fəaliyyəti ilə təkcə odessalıların yox, ümumən ukraynalıların rəğbətini qazana, etimadını doğrulda bilib. Hərgah, təvazökarcasına baş nazirlikdən imtina edəcəyini söyləyib və qərarını da belə izah edib ki, "baş nazirlik üçün bütün keyfiyyətlərə malik olmasına, ələlxüsus maliyyə sistemindən baş çıxarmasına, dürüst insan olmasına və oliqarxiya maraqlarından tam azad olmasına baxmayaraq, Ukraynada bu problemlərdən daha yaxşı baş açan insanlar var".

Ukraynadakı islahatların, ələlxüsus ordu quruculuğu sahəsində, silahlı qüvvələrin, milli təhlükəsizlik sisteminin təzədən təşkili məsələlərində qazanılan ciddi uğurlar - bunu Qərb mütəxəssisləri artıq etiraf edirlər - Azərbaycan üçün məxsusi önəm daşıyır sözsüz ki. Birinci ona görə ki, Ukrayna kimi Azərbaycan da müharibə vəziyyətindədir, ərazisinin bir qismi işğal altındadır, biz Ukrayna ilə hətta ortaq təcavüzkara (Rusiya) malikik.

İkincisi, korrupsiya hər iki ölkədə kifayət qədər dərin kök salan iqtisadi-sosial, ictimai-siyasi bəladır. Belə rejimlərdə isə təmiz kadrlar tapmaq və onların düzgün işləməsi üçün mühit formalaşdırmaq asan deyil. Lakin mümkünsüz də görünmür - yetər ki, ölkə rəhbərliyinin bundan ötrü iradəsi və qətiyyəti olsun.

Effektli kadr siyasəti isə həm də operativ və özünü doğruldan ixtisarlar, büdcəyə əlavə yük olan paralel strukturların və ölü strukturların ləğvi, bütün səviyyələrdə səmərəli və şəffaf idarəçilik deməkdir. Bunun da ilkin şərti əlbəttə ki, ədalətli təyinatlar, şəffaf seçkilər, şəffaf tenderlər və kadr seçimi üçün şəffaf müsabiqələrdir.

Qoy müharibə amilini heç kim bəhanə gətirməsin. Böyrümüzdəki Gürcüstan örnəyi öz yerində, Ukrayna təcrübəsi də göstərir ki, müharibə vəziyyətində belə iqtisadi-siyasi, kadr islahatları aparıb ölkənin yerdə qalan ərazinin və əhalisinin normal inkişafını təmin eləmək mümkündür.

Korrupsioner kadrların yerdəyişməsi ilə, "toplananların yerini dəyişməklə", 1-2 qismən təmiz kadrla isə buna nail olmaq istisnadır. Xalqın narazı olduğu problemli kadrların yerinin dəyişməsi elə problemlərin yerinin dəyişməsi deməkdir. Özümüzü aldatmayaq.

**Ən ümdəsi isə, kadr islahatlarına "yuxarıdan" ehtiyac duyulmasıdır. Saakavilinin kadr üçün sadə təmizlik testi də elə bundan ibarətdir ki, bir müəssisənin, idarənin, təşkilatın işçisinin təmiz işləməsi üçün ilk növbədə onun müdiri, rəisi, rəhbəri təmiz, dürüst işləməlidir. Beləcə, aşağıdan yuxarı... Yoxsa bataqlıdan çıxmayacağıq.**

# Sumqayıtlılar yeni icra başçısından nə gözləyir?

**Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun Sumqayıt şəhərinə rəhbər təyin edilməsi bu həftənin ciddi hadisələrindən biri oldu. Əvvəllər Sumqayıt şəhər bələdiyyəsinin sədri işləmiş Z.Fərəcovun gələcək fəaliyyəti çoxlarında maraq doğurur.**

Sumqayıtdan olan tanınmış simaların yeni təyinata dair mövqelərini öyrəndik.

**Şəhərin keçmiş deputatı, Müsavatın Divan üzvü İkram İsrafil** bildirdi ki, Zakir Fərəcovun fəaliyyəti əvvəlki icra başçısı Eldar Əzizovdan fərqli olacaq: "İcra başçıları məsələlərində fərqli yanaşmalar var. Əvvəllər də qeyd edirdim ki, rayonlarda rəhbər vəzifələrə yerli sakin olan şəxslər təyin olunmalıdır. Yeni təyinatla bağlı onu deyə bilərəm ki, əvvəlki icra başçısından fərqli olacaq. Buna səbəb Zakir Fərəcovun Sumqayıtda gəncliyindən fəhləliklə məşğul olması, müxtəlif sahələrdə çalışmasıdır. Abşeron rayonuna icra başçısı getməmişdən əvvəl Sumqayıt bələdiyyəsinin sədri idi. Onunla şəxsi münasibətlərimiz daim normal olub. Baxmayaraq ki, Müsavat Partiyasının Sumqayıt təşkilatının sədri idim, amma münasibətlərimiz sivil idi. Partiyamıza, şəxsimə qarşı da münasibəti normal idi. Zakir Fərəcovun Sumqayıtda icra başçısı olması şəhərə ziyan olmaz. Ünsiyyətdə olduğum insanların bu təyinatdan razı qaldıqlarını gördüm. Ümumən Sumqayıt əhlinin bu təyinata müsbət yanaşdığını düşünürəm. Ona qarşı münasibət hələlik pis deyil".



**İkram İsrafil:** "Onunla şəxsi münasibətlərimiz daim normal olub"



**Fəxrəddin Abbas:** "Ola bilsin ki, əvvəlkindən yaxşı olsun"

**Müsavatın Sumqayıt təşkilatının hazırkı sədri Fəxrəddin Abbas** icra başçısının kim olmasının Azərbaycanda önəminin olmadığını qeyd etdi: "Bu hakimiyyətdə icra başçıları tapşırıq yerinə yetirən insanlardır. Burada bir məsələ var ki, əvvəlki icra hakimi Eldar Əzizov Gəncədə olarkən Müsavatın qərargahını dağıtdı. Sumqayıta icra başçısı təyin olunduqdan sonra isə burada qərargahımızı bağlatdırdı. Ümumiyyətlə, o adam hara icra başçısı təyin olundusa, mənfi mənada ad çıxardı. İndiki təyinat ola bilsin ki, əvvəlkindən yaxşı olsun. Çünki Sumqayıtda yaşayıb, burada müxtəlif vəzifələrdə çalışıb. Amma siyasi anlamda heç bir dəyişiklik gözləmirəm".

❑ **Cavanşir ABBASLI**

# Sabiq deputatdan Mirmahmud Mirəlioğlu ilə bağlı açıqlama

## "Onunla danışıb məsləhətləşmişik, iki-üç günə məsələni həll edəcəyik"

**Müxalifət partiyaları parlament seçkiləri ilə bağlı namizədlər siyahılarını açıqlayıblar. Proses hələ də davam edir. Açıqlanan siyahılarda diqqətçəkən məqamlardan eyni dairədə iki və daha çox tanınmış müxalifətçinin namizədliyinin irəli sürülməsidir. Belə dairələrdən biri 43 saylı Sumqayıt seçki dairəsidir. Həmin seçki dairəsindən Müsavat Partiyası 2005-2010-cu illərdə bu dairənin deputatı olmuş Divan üzvü İkram İsrafilin namizədliyini irəli sürüb. "Azadlıq 2015" seçki blokunun namizədlər siyahısında isə həmin dairədən KXCP sədri Mirmahmud Mirəlioğlu namizəd kimi qeyd olunub.**



İkram İsrafillə əlaqə saxlayıb Mirmahmud Mirəlioğlu kimi tanınmış siyasətçi ilə eyni dairədə mübarizə aparmağın çətin olub-olmayacağını, bir-birinə güzəştə gedə biləcəklərinin mümkün olub-olmadığını soruşduq.

**İkram İsrafil** hələ iki ay öncə "Yeni Müsavat" qəzetinin suallarını cavablayan zaman ya 30 ildən çoxdur yaşadığı 43 saylı Sumqayıt 3-cü seçki dairəsindən, ya da doğulduğu və millət vəkili olduğu dövrdə çoxsaylı işlərin görülməsinə nail olduğu 115 saylı Şəki kənd seçki dairəsindən namizəd olacağı barədə dediklərini xatırlatdı. Sonra bildirdi ki, namizədliyini 43 saylı seçki dairəsindən verəcəyini açıqladıqdan sonra Mirmahmud Mirəlioğlunun da 43 saylı dairədən namizəd irəli sürüldüyünü mediadan öyrənib: "Hörmətli Mirmahmud ağayla ilərdən gələn qarşılıqlı səmimi münasibətimiz var və davam edir. Ağayla danışıb məsləhətləşmişik , inşallah iki-üç günə bu məsələni həll edəcəyik".

❑ **E.SEYİDAĞA**

# Müsavat, REAL və NİDA seçki ilə bağlı razılığa gəldilər

**1 noyabrda keçiriləcək parlament seçkilərində iştirak etmək barədə qərar qəbul edən Müsavat Partiyası, "REAL" Vətəndaş Hərəkatı və "NİDA" Vətəndaş Hərəkatı seçkilər dövründə fəaliyyətlərinin uzlaşdırılması barədə razılığa gəlib. Həmin təşkilatlar sentyabrın 4-də bu barədə birgə bəyanat qəbul ediblər. Üç bənddən ibarət birgə bəyanatda deyilir ki, adıçəkilən təşkilatlar ölkədə azad seçki keçirilməsi üçün şərtlərin minimum olduğu şəraitə rəğmən, hakimiyyətə qarşı mübarizənin fasiləsizliyi və ardıcıllığı baxımından 2015-ci il parlament seçkilərində iştirakı məqsədəuyğun hesab edirlər, parlament seçkilərinə hazırlıq, namizədlərin irəli sürülməsi, dairələr üzrə irəli sürülən namizədlərin qeydiyyatı, qeydə alınmış namizədlərin seçki kampaniyası dövründə bir-birinə qarşı təbliğat aparmamaları, seçki dairələri üzrə vahid namizədlərin müəyyənləşməsi imkanlarını araşdıracaqları barədə razılığa gəlirlər.**

Bəyanatın üçüncü bəndində isə bəyan edilib ki, tərəflər seçki kampaniyası dövründə yol verilən qanun pozuntularının birgə monitorinqinin aparılması, seçki günü birgə müşahidənin təşkili, qanun pozuntuları və saxtakarlıqlara münasibətdə ümumi mövqenin müəyyənləşdirilməsi, seçkilərin nəticəsi haqqında birgə yekun rəyin hazırlanması barədə razılığa gəlirlər.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 196 (6224) 5 sentyabr 2015



# "Vəzifəmiz vəziyyəti yaxşıya doğru dəyişməkdir"

## Ənvər Ağazadə: "Seçkilərdə iştirak etməklə cəmiyyəti daha çox irəli aparmaq olar"

**Seçkilərə start verildi. Bu il də müxalifətin arzuladığı kimi Seçki Məcəlləsi, seçki komissiyaları dəyişilmədi. Heç arzu olunan seçki mühiti də yaradılmadı. Əksinə bir az da pisləşdi. Hakimiyyətin apardığı seçki siyasəti öz bəhrəsini verdi. Bəzi Partiyaların namizədlərinin siyahısını açıqlaması, seçkilərə qoşulması ilə bağlı bəyanatlar istisna olmaqla, seçkilərə start verilməsinə baxmayaraq hələ də seçki aktivliyi hiss olunmur.**

2013-cü ilin Prezident seçkilərindən sonra ötən iki il ərzində vəziyyət bir azda çətinləşdi. QHT-lərə və siyasilərə olan basqılar, QHT-lər Haqqında Qanunların sərtləşməsi, qalmaqallı həbslər və məhkəmə prosesləri baş verdi, tanınmış hüquq müdafiəçiləri və jurnalistlər həbs olundu. Bundan başqa ötən iki ildə regionda, dünyada və Yaxın Şərqdə bir sıra çox hadisələr baş verdi, yeni münaqişə ocaqları yarandı. Ukraynada baş verən Maydan hərəkatı, ardından Rusiyanın Krımı ilhaqı, Rusiyaya tətbiq olunan sanksiyalar və neftin qiymətinin kəskin ucuzlaşması, bütün siyasətini neftin üzərində quran Azərbaycana da təsirsiz ötüşmədi. Manat qiymətdən düşdü, qiymətlərdə artım müşahidə edilməyə başladı, müəssisələrdə ixtisarlar gündəmə gəldi və davam edir, hakimiyyətin bu günə qədər apardığı balans siyasəti dalana dirəndi. Super güclərin ölkəyə olan basqıları şiddətləndi, bir tərəfdə Rusiyanın açıq təhdidi, digər tərəfdə Avropanın siyasi təzyiqləri və arada sıxışan Azərbaycan hakimiyyəti. Qarabağ bölgəsində də Atəşkəs rejimi mütəmadi pozulur. Bir tərəfdən də dini qrupların fəallaşması nəzərə çarpır. Azərbaycan hakimiyyətinin bu günə qədər apardığı siyasət demək olar ki, ölkəni çox ciddi proseslər astanasına gətirib çıxarıb. Bu sırada baş verən hadisələri, qalmaqallı məhkəmə proseslərini izləməyə , ara sıra bəyanatlar verməyə, bir-birinə qarşı tez-tez cəbhə açmağa başı qatışan müxalifət bir də gözünü açdı ki, parlament seçkiləri qapını döyür. Yenə də eyni koordinat, eyni dalğa. Seçkilərə qatılması barədə bəyanatlar verib namizədlər siyahısını açıqlayan və seçkiyə qatılanlarla bərabər boykot qərarı verənlər də var. Seçkiyə qoşulanlar və qoşulmayanlar arasında yenə də ənənəvi qaydada qarşılıqlı ittihamlar irəli sürülməkdədir. Hər tərəfin öz arqumenti var. Hər bir tərəf də öz arqumentində haqlı olduğunu sübut etməyə çalışır. Rejimin uzun illər apardığı seçki siyasəti həm bu, həm digər tərəfi çox zor duruma salıb. Seçkiyə qatılan və qatılmayan siyasilərin bir çoxu da proseslərdə çox həvəssiz görünür. Bu isə əhalinin seçkiyə həvəssiz yanaşmasından, proseslərdə zəif iştirak etməsinindən qaynaqlanır və bir daha Ümid Partiyasının seçki taktikasının doğru olduğunu sübut edir. Partiya seçkilərə həmişə fərqli yanaşıb. Seçki yolu ilə dəyişikliyin ideal olduğunu, inqilabların ölkələrə xaos, vətəndaş müharibəsi, səfalət, qarışıqlıq gətirdiyini bildirərək, seçki qurtaran kimi seçki hazırlıqlarına başlamaq bu partiya uçub bir prinsip olub. Bunun nəticəsidir ki, artıq partiya tam hazır vəziyyətdə seçkilərə start verib. Partiyanın Mətbuat Xidməti seçki hazırlığı və görülən işlərlə bağlı Ümid Partiyası sədrinin Birinci müavini Ənvər Ağazadənin fikrini öyrənib.

***- Ənvər bəy seçkilərə hazırlıq necə gedir? Artıq rəsmi seçkilərə start verilib və sənəd qəbuluna başlanıb. Sizdə işlər necə gedir?***

- Partiyanın Seçki Qərargahı gərgin işləyir. Demək olar ki, bir neçə gündür gecə və gündüz işləyirik. Namizədlərin sənədləri hazırlanır. Seçkilərə rəsmi start veriləndən dərhal sonra biz qanunvericiliyə uyğun olaraq zəruri sənədləri MSK-ya təqdim etmişik. Dünəndən isə DSK-lara sənədlərin təqdimatına başlamışıq.80-dən artıq namizədlə seçkiyə qatılırıq. Bütün namizədlərin sənədləri tam hazırdır. Artıq 30-a qədər namizədin sənədlərini DSK-lara təqdim etmişik. Bu gün isə sənədlərin təqdim olunması davam edir.

***- Seçkilərə rəsmi start verilib. Partiyaların sənəd hazırlığı, sənədlərin DSK-lara təqdimatı, partiyaların seçkilərə qoşulması və namizədlərinin siyahısını açıqlaması xaricində yenə də ölkədə seçki mühiti hiss olunmur, canlanma müşahidə edilmir. Əhali də seçkilərdə iştiraka həvəsli görsənmir. Belə şəraitdə sizdə bu inam, yüksək əhval -ruhiyyə haradan qaynaqlanır?***

- Tamamilə doğrudur. Bu gün ölkədə seçki əhval-ruhiyyəsi hiss olunmur. Bunun bir çox obyektiv və subyektiv səbəbləri var. Demək olar ki, əksər seçicilərdə belə rəy formalaşıb ki, seçkilər ədalətli və demokratik keçirilmir. Hakimiyyət kimi istəyirsə, o da qalib olur. Bu rəyi uzun illər hakimiyyət formalaşdırıb. İnsanların seçkilərə, hətta özlərinə güvəni azalıb. Bu çox acınacaqlı bir vəziyyətdir. Amma seçicilər hakimiyyətdən onlara səs verməyəcək qədər narazıdır. Və bizi həvəsləndirən amillərdən biri də budur. İnanırıq ki, hakimiyyətdən narazı olan bütün qüvvələr bizim namizədlərə səs verəcək. Seçib-seçilmək vətəndaşların ən ali hüquqlarıdır və bu hüquqdan istifadə etməlidir. Bizim vəzifəmiz vəziyyəti yaxşıya doğru dəyişməkdir. Seçicini seçkiyə, proseslərə qoşulmağa inandırmaqdır. Vətənə, dövlətə məhəbbət hissini formalaşdırmaqdır. Ona görə də işimiz həddindən artıq çox və şərəflidir. Sevindirici hal ondan ibarətdir ki, bizim kimi düşünən insanların sayı günbəgün artır. Dünənə kimi bizi, partiyamızı tənqid edənlər bu gün ən ağıllı siyasəti siz aparırsınız deyirlər. Xüsusilə, gənclərin sayı sıralarımızda günbəgün artır. Bu il fərqli olaraq ümid Partiyasından namizədliyini irəli sürmək istəyənlərin də sayı artıb. Fikir versəniz görərsiniz ki, namizədlərimizin də çoxu gənclərdir. Seçiciyə lazım olanda onun yanında ola bilən, probleminin həllinə çalışan millət vəkili lazımdır. Bizim üçün sədrimiz İqbal bəyin simasında çox gözəl bir təcrübə var. Həm millət vəkilinin fəaliyyəti, həm də seçkiləri qazanmaq təcrübəsi. Bununla yanaşı dairədə seçicilərlə gördüyümüz işlər, əldə etdiyimiz nəticələr bizə güvənli danışmağa əsas verir.

***- Bu seçkidə boykot yolunu tutan və buna çağırış edənlər də var. Buna münasibətiniz necədir?***

- Boykot məsələsinə isti baxmıram. Bu həmin siyasi qüvvələrin öz fikirləridir və arqument də göstərməyə çalışırlar. Amma biz hesab edirik ki, bu doğru deyil, onların arqumenti yoxdur və bu gün üçün boykot effekt vermir. İnsanlar seçkidə özlərinin passiv seçki hüququndan imtina edə bilərlər. Yəni hansısa tanınmış siyasi özünün passiv seçki hüququndan imtina etməklə özü seçkini baykot edə bilər ki, bunun da cəmiyyətə heç bir xeyri yoxdur. Hesab edirəm ki, boykot üçün partiyadaşları, ətrafında olan insanları, digər partiyaları, passiv və aktiv seçici hüququ olan hər bir kəsi boykota inandırmalısan və bu baş verməlidir. Əgər bu gün sənin boykot çağırışına məhəl qoyulmursa, çağırışına səs verilmirsə deməli boykot effekt verməyəcək. O, baxımdan seçkilərdə iştirakı daha məqbul hesab edirik. Düşünürük ki, seçkidə iştirakla cəmiyyəti daha çox irəli aparmaq olar.

# Ümidçi gənclər yeni "Kitabını Paylaş" kampaniyasına başlayır







**Ümid Partiyasının gənc fəalları yeni - "Kitabını Paylaş" kampaniyasına başlayır. Kampaniyanın əsas məqsədi istifadəsiz hesab edilən kitabların daha səmərəli istifadə edilməsini təşkil etmək, kitab almağa imkanı və vaxtı olmayan insanların kitab oxumasına kömək göstərməkdir. Bu barədə Partiyanın Mətbuat Xidmətinə gənc fəallar Ülviyyə Nəsirli danışıb.**

"Hər birimizin evində oxuduğumuz kitablar var, elə kitablar var ki, artıq bir neçə dəfə oxunmuşuq. Bu cür kitablar bəzən evlərdə illərlə istifadəsiz qalır. "Kəpənək" layihəsi olaraq düşündük ki, bu kitabların daha çox insan tərəfindən oxuması daha faydalıdır"- deyə gənc fəal qeyd edib.

Ü.Nəsirli əlavə olaraq bildiriblər ki, bu cür kitabları tanımadığımız insanlara hədiyyə edərək həm kitabların səmərəli istifadə edilməsinə, həm də insanların maariflənməsinə nail ola bilərik. Öncə kitabların üzərinə şəkildə göstərildiyi kimi "stikerlər" yapışdırılacaq, kampaniyaya qoşulanın adı (yəni kimin hədiyyə verdiyini ) və ürək sözləri yazılacaq, daha sonra bu kitabları getdiyimiz yerlərdə - parklarda, mağazalarda, kitabxanalarda, kafelərdə, məktəb və universitetlərdə başqasının götürməsi üçün qoyulacaq. Çalışacağıq ki, hədiyyə ediləcək kitabların üstündəki yazılar rəngbərəng və diqqətçəkən olsun. Bunu kampaniyaya qoşulan hər bir kəsə də izah edirik. Kampaniyaya ilk öncə "Kəpənək" layihəsinin üzvləri başlayacaq. Hər bir kəs bu layihəyə qoşula və dəstək verə bilər. İnsanların millətimizin maariflənməsi yolunda addım atdığını görmək bizim üçün çox xoşdur.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 196 (6224) 5 sentyabr 2015



# Dərin narahatlıq

Zamin HACI
zaminhaci@gmail.com

"Baş üstə, baş üstə, nəsihət elərəm. Amma bunu de ki, mənim sözümə qulaq asan kimdi? Odu, Allahın iti də mənim sözümə baxmır; nə qədər elədim, içəri girmədi. Xa...xa...xa..."

**(Mirzə Cəlil, "Ölülər")**

**Avropaya qaçan mühacirlərin başına gələn faciəli hadisələri izlədikcə siyasi partiyaların daha bir önəmi ortaya çıxır. Örnək üçün, bizim camaat xaricdən sığınacaq almaq üçün adətən siyasi partiyaların arayışlarından yararlanır. Hətta bir ara bu arayışların topdansatış məntəqəsi aşkar edilmişdi. Əgər suriyalı qaçqınlar da vaxtında ağıllı tərpənib siyasi partiya qayırsaydılar indi rahatlıqla Avropa vətəndaşı olardılar. Partiyası olmayan aralıqda batır. Hər mənada.**

Yeri gəlmişkən, mən sosial şəbəkədə suriyalı qaçqınları qınayan xeyli status oxudum, yazırdılar nə üçün ölkənizdəki avtoritar, monarxiya rejimlərini dəyişdirmirsiniz, qaçıb xaricə gedirsiniz. Üstəlik, xaricə öz problemlərinizi, inancınızı gətirirsiniz və sairə. Maraqlıdır ki, bu cür sözləri yazanlar elə bizim Avropaya sığınan mühacirlər idi. Sanki "Qonaq qonağı istəməz, ev yiyəsi heç birini" ata sözü canlanmışdı. Elə bil bunlar özləri Azərbaycanı düzəldib gediblər kurorta. Rəhmətliyin uşağı, o yazıq suriyalılar da elə sizin kimi əlacsızlıqdan qaçıb Avropaya sığınmaq istəyirlər, yoxsa heç kim kefindən vətənini atmaz.

Bu arada ABŞ-dan kəskin bir xəbər gəlib: deyir Amerika hökuməti jurnalist Xədicə İsmayılın həbsindən dərin narahat olmuşdur. Bah, bah... İndiyəcən adətən narahat olurdular, indi dərin narahat olublar. Fərq dərinlikdədir. Lap o "Bəxtiyar" kinosunda deyilən kimidir. "Narahatlığınız neçə metrdir? - 5 metr. - Yox, yox, 10 metr!". Bir neçə senator Anar Məmmədovun daşıdığı qara kürüdən yeyib qarın ağrısına düşübdür. İndi deyir gözləyirlər deputat Asim Mollazadənin qardaşı Ceyhun müəllim qarın ağrısı dərmanı gətirsin.

Dərin narahatçılıq Bakıdakı missiyaya da təsirsiz ötüşməyibdir. Ola bilsin Amerika səfiri Sekuta müəllimin ürəyi ağrıyıb, halbuki bundan qabaq ancaq dili-ağzı quruyurmuş. İnfarkt olan konqresmen-zad varsa xəbər verin, gətirək 5 nömrəlidə, orda yer olmasa Semaşko-da əməliyyat edilsin. Biz humanitar dövlətik, bəs necə.

Dərin islahatlar isə bizdə də gedir. Misal üçün, uca millətimiz gözləyirdi benzinin qiyməti düşsün, bu yandan bulvarda velosiped prokata verənlər qiyməti 1 manat da artırıbdır.

O cümlədən, Eldar Əzizovun Nizami rayonundan başlanan "Odisseya"sının Gəncə-Sumqayıtı fırlanıb Səbayelə çatması düşündürücü və dərin islahatdır. Bu, təxminən Saakaşvili kimi adamdır. Hər bir rayon istəyir ki, Eldar müəllim gəlib onun ərazisində uzun tort qayırsın. Bir gün Eldar müəllim təzədən Nizami rayon icra hakimi olanda dairə qapanacaqdır, ölkəmizdə islahatlar tam başa çatacaqdır. Hurrey! Məni istəyən əl çalsın!

Eyni radikal, dərin, köklü-köməcli, uzunluğu Yerin maqma qatına çatan və orada dünənki zəlzələni törədən islahat isə Azərbaycan Dövlət Neft Akademiyasının adının dəyişməsidir. İndən belə bura ta akademiya sayılmayacaqdır, adı Azərbaycan Dövlət Neft və Sənaye Universiteti olacaqdır.

Neftin qiyməti düşən kimi ta neft akademik sayılmır... Eh, gidi dünya... Əcəb olur. Bir az da ucuzlaşsın, bəlkə universitetin adını Neft və Mal Təzəyi Universiteti qoyacaqlar. Neft və Ərik də olar. Neft və Xiyar, Neft və Hamam - variantlar çoxdur.

Bu mənim yadıma nakam diplomumu saldı. Onun içində yazılıb ki, bu diplomun yiyəsi 1989-cu ildə Leninqrad Maliyyə İqtisad İnstitutunun Bakı filialına plan-iqtisad ixtisası üzrə daxil olaraq 1994-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin iqtisadiyyatın dövlət tənzimlənməsi ixtisası üzrə bitirmişdir. İndi gəl baş aç. Halbuki, mənim heç günahım yoxdur, oxuduğum dövrdə 3 prezident, 2 dövlətlə yanaşı institutun və ixtisasın adı da azı 3 dəfə dəyişmişdi.

**Hərçənd, 1994-cü ildə 3 min dollara gömrüyə düzəldən vardı, pul olsaydı indi burda kim bilir nə oxuyardınız.**

# YAP-dan namizədlərin siyahısı ilə bağlı son açıqlama

## Siyavuş Novruzov: "Siyahı ilə bağlı işlər yekunlaşıb..."



**Hakimiyyətin məxfi seçki hazırlığı ilə bağlı ən müxtəlif versiyalar dolaşmaqdadır. Hətta iddialardan biri budur ki, hakim partiya ölkənin siyasi həyatının qaynarlaşmasından ehtiyatlandığı üçün siyahı müəmmasını aradan qaldırmır, YAP-ın seçki siyahısını açıqlamır. Digər iddialar da var. Bu barədə YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzovla danışdıq. Telefona gec cavab verməsinin cavabında bildirdi ki, iclasdaymış. Və növbəti sualımız:**

**- Siyavuş bəy, iclas YAP-ın seçki siyahısı ilə bağlı idi, yoxsa...**

- Səlahiyyətli nümayəndələrin təsdiqi, onların yerlərə göndərilməsi, vəsiqələrin alınması və s. kimi seçki ilə bağlı kifayət qədər iş var.

**- Yəqin bilirsiniz ki, YAP-ın seçki siyahısı zəlzələ mövzusundan da aktualdır. Bəs, nə vaxt açıqlanacaq?**

- İnşallah, bu həftə ərzində açıqlanacaq.

**- Artıq həftənin iş günləri başa çatır. Bu gün, ya sabah ola bilərmi?**

- Gözlənilir. İşlər yekunlaşıb.

**- İddialar var ki, YAP ölkənin ictimai-siyasi həyatında canlanmanın, aktivliyin yaranmaması üçün siyahını da maksimum gec açıqlamaq istəyir...**

- Elə bir şey yoxdur. Onsuz da qanunvericilikdə belədir ki, imza toplayandan sonra seçkilərə ən azı 50 gün qalmış DSK-ya digər sənədləri təqdim etmək olar. Yəni onsuz da DSK ayın 12-dən tez hər hansı sənədi qəbul etməyəcək. Əgər namizəd irəli sürülürsə, namizədin müdafiəsi üçün seçici imzaları toplanılır, müvafiq sənədlərlə birgə DSK-ya təqdim etmək üçün seçkilərə ən azı 30 gün, ən çoxu 50 gün qalmış təqdim olunmalıdır. Bu baxımdan kifayət qədər zaman var. Əvvəlcədən qeyd etmişik ki, bizim hər dairə üzrə 10 nəfər imza toplayan şəxsimiz müəyyən olunub, onlara treninq keçirilib. Bir gün, gün yarım ərzində bunlar imzaları toplayacaq və müvafiq sənədlərlə birlikdə hazır vəziyyətdə saxlayacaq. Sentyabrın 12-nə qədər onsuz da sənədləri DSK-yə təqdim etmək mümkün deyil. O baxımdan da vaxtında biz bütün prosedurları yerinə yetiririk.

**- Bütün işlər başa çatıbsa, namizədlərin yekun siyahısının açıqlanmasına mane olan nədir?**

- Bununla əlaqədar gərək partiyanın ali orqanının, İdarə Heyətinin toplantısı keçirilsin. Bununla əlaqədar İdarə Heyətinə qabaqcadan müraciət olunur və s. Yəni nə vaxt olacaqsa, biz ictimaiyyətə açıqlayacağıq və bütün siyahını YAP-ın saytında yerləşdirəcəyik.

**- Bizim qəzetimizə bundan öncəki müsahibənizdə demişdiniz ki, İdarə Heyəti bu həftə toplanacaq. Ertələnmə nə ilə bağlıdır?**

- İdarə Heyətinin bununla bağlı toplantısı bir dəfə olub. Ancaq bu, səlahiyyətli nümayəndələrin təyin olunması ilə əlaqədar idi. İdarə Heyətinin qərarı ilə biz 160 nəfər səlahiyyətli nümayəndə təyin etmişik və MSK bununla əlaqədar qərar verib, onları müvafiq lövhəciklərlə təmin edib.

**- Səlahiyyətli nümayəndələr dairələr üzrə təyin edilib, yoxsa konkret namizədlər üçün?**

- Dairələr üzrə. Hər dairə üzrə 2 nəfər səlahiyyətli nümayəndə təyin etmişik. Bundan başqa Əli Əhmədov respublika üzrə səlahiyyətli nümayəndədir, mən isə maliyyə məsələləri ilə bağlı bütün respublika üzrə səlahiyyətli nümayəndəyəm.

**- Tərəddüdlərinizdən belə çıxmırmı ki, hələ 125 nəfərlik siyahının tərtib olunması tam başa çatmayıb?**

- Yox, siyahı tam dəqiqləşib, amma xırda detallar qalır. Namizədlərlə bağlı məlumatlar olmalıdır. Bu məlumatlar həm bildirişdə, həm razılıq ərizəsində, həm də protokolda olmalıdır. O baxımdan texniki işlər gedir.

**- Eldar Sabiroğlu açıqlamalarının birində YAP rəhbərliyindən narazılığını ifadə edib. Bu barədə nə deyə bilərsiniz?**

- Onun dediklərini oxumamışam. Başım bu işlərə o qədər qarışır ki, oxumağa imkanım olmayıb.

**- Eldar müəllim YAP üzvüdür, yoxsa Müdafiə Nazirliyinə gedəndən partiyadan uzaqlaşıb?**

- Partiyanın üzvüdür. Hərbi sahəyə getdikdən sonra partiya fəaliyyəti dayandırılmısdı. Ordudan tərxis olunandan sonra yəqin ki, bərpa ediblər.

**- Deyir "partiyada və yuxarı dairələrdə məni arzulamayan insanlar var. Bunu gizlətməyimin bir mənası yoxdur. Onlar mövqe sahibidirlər" - deyib. Onu da etiraf edib ki, kimlərinsə adlarını çəkmək ona xeyir gətirməz. Çünki üstünə şığıyarlar". Çox ciddi ittihamlardır...**

- Bununla əlaqədar konkretlik lazımdır. İstəmirəm ümumi sözlərə münasibət bildirim.

**- Nəsimi rayonunun sabiq icra başçısı deyib deputat olmaq istəyirmiş, ona görə də vəzifədən çıxarılmasını şəxsən xahiş edib...**

- Deputat olmaq hər bir vətəndaşın arzusu, istəyidir. Yaşı 25-ə çatmış hər bir Azərbaycan vətəndaşı seçib-seçilə bilər. Bəzi məhdudiyyətlər var, ağır cinayət törədənlərə, əqli cəhətdən zəif olanlara qanunla məhdudiyyətlər qoyulur. Digər vətəndaşlara konstitusiya ilə seçilmək hüququ verilib. Ona görə də kim istəyirsə, buyurub namizədliyini irəli sürə bilər.

**❑ E.PAŞASOY**

## Hakim partiya funksioneri Eldar Sabiroğlunun ittihamlarına da reaksiya verdi

# BAXCP sədri ABŞ səfiri ilə görüşdü



**Sentyabrın 4-də Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Robert Sekuta Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının mərkəzi mənzil qərargahında partiyanın sədri, millət vəkili Qüdrət Həsənquliyevlə görüşüb. Bu barədə musavat.com-a partiyanın mətbat xidmətindən xəbər verilib.**

Bildirilir ki, görüşdə Azərbaycan ərazilərinin Ermənistanın tərəfindən işğalı nəticəsində yaranmış münaqişənin tənzimlənməsi, ictimai-siyasi vəziyyət və seçki öncəsi durum barədə müzakirə aparılıb.

**Görüşdə ABŞ səfirliyinin siyasi müşaviri Syuzan Çesli və BAXCP sədrinin beynəlxalq məslələr üzrə müavini Elçin Mirzəbəyli də iştirak ediblər.**

YENİ MÜSAVAT
N 196 (6224) 5 sentyabr 2015

**Azərbaycanda keçiriləcək parlament seçkilərində iştirak edəcək ilk siyasi partiyalar bloku qeydə alınıb. Sentyabrın 4-də Mərkəzi Seçki Komissiyasının iclasında Milli Məclisə seçkilərdə Klassik Xalq Cəbhəsi Partiyası, Azərbaycan Xalq Partiyası, Azadlıq Partiyası, Aydınlar Partiyası, Azərbaycan Liberal Demokrat Partiyası, Bütöv Azərbaycan Partiyası, Vətəndaş və İnkişaf Partiyasının bir araya gəldiyi "Azadlıq-2015" siyasi partiyalar blokunun qeydə alınması məsələsi müzakirəyə çıxarılıb. Məsələ səsverməyə çıxarılıb və "Azadlıq-2015" siyasi partiyalar bloku qeydə alınıb.**

# "Azadlıq 2015" MSK-da qeydə alındı

## **Pənah Hüseyn:** "Hansı şəraitdə seçkiyə getdiyimizin fərqindəyik"

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** təsisçilərindən biri olduğu "Azadlıq 2015" seçki blokunun seçki hazırlıqları və ölkədəki seçki kampaniyasının gedişi barədə "Yeni Müsavat"ın suallarını cavablandırınb.



"Təbliğat-təşviqat kampaniyasının başlanması vaxtından öncə təbliğat aparıla, təbliğat mitinqləri keçirilə bilməz"

**- Seçki kampaniyasının ilk həftəsi arxada qaldı. Bu mərhələni necə keçirdiniz?**

- Artıq seçki başlayıb, biz də sənədlərimizi siyasi partiyaların bloku kimi qeydə alınmaq üçün MSK-ya təqdim etdik və bu gün (dünən) MSK "Azadlıq 2015" seçki blokunu rəsmi qeydə aldı. Qeydiyyatı gözləyirdik ki, namizədlərin sənədlərinin təqdim edilməsi prosesinə başlayaq. Seçki kampaniyasının indiki mərhələsində ümumi siyasi ab-hava məlumdur. Amma seçki kampaniyası getdikcə, öz intensivliyini və aktivliyin artdığını göstərəcək.

**- Blokun bütün namizədləri bəllidirmi?**

- Blok MSK-da qeydə alındığı üçün bundan sonra namizədlərimizi rəsmən irəli sürəcəyik. Təxminən 80-ə yaxın dairədə namizədlər müəyyənləşib, partiyalar namizədlərini təqdim edib.

**- "Azadlıq 2015"i 8 partiya yaratsa da MSK-ya göndərilən təsisçilərin sırasında Sülhəddin Əkbərin sədrlik etdiyi Azad Demokratlar Partiyasının adı yoxdur. Bu nə ilə bağlıdır?**

- Azad Demokratlar Partiyası Ədliyyə Nazirliyində qanunsuz olaraq qeydə alınmayıb, iş məhkəmədədir. Ona görə də həmin partiyanın adı blokun təsisçiləri sırasında yoxdur. Sülhəddin bəyin partiyasının üzvləri namizədliklərini irəli sürəcəksə və seçkiyə "Azalıq 2015" seçki bloku ilə getmək barədə qərarları olacaqsa, onların namizədlərinin blokun siyahısında olması mümkündür.

**- Azad Demokratlar Partiyası blokdan çıxmış sayılmır?**

- Blokdan çıxmış sayılmır. Amma rəsmi hüquqi təsisçilər sırasında yuxarıda qeyd etdiyimi səbəbdən yoxdur.

**- Sizin blokdakı partiyaların sədrlərinin, tanınmış şəxslərinin sıralarında elələri varmı digər partiyaların sədrləri və tanınmış şəxsləri ilə eyni dairədən namizədlikləri irəli sürülüb?**

- Mənim üçün hər bir namizəd mötəbərdir. Ayrıseçkilik etməyi doğru saymıram.

**- Blokunuz seçki kampaniyası dövründə kütləvi aksiyalar, təbliğat mitinqləri keçirəcəkmi?**

- Bu müddətdə bütün aksiyalar qanunvericiliklə tənzimlənir. Təbliğat-təşviqat kampaniyasının başlanması vaxtından öncə təbliğat aparıla, təbliğat mitinqləri keçirilə bilməz. Ona görə də bu məsələləri sırf qanunvericiliyə müvafiq şəkildə aparacağıq. Bir sıra hərəkətlər seçkilər dövründə spesifik şəkildə tənzimlənir. Buna uyğun olaraq da öz işimizi quracağıq.

**- Müsavat Partiyasının namizədlər siyahısında sizin namizədliyinizi irəli sürdüyünüz dairədən namizəd irəli sürülüb. İllərlə Müsavatla müttəfiq olmusunuz, Müsavat həmişə həmin dairədə məhz sizin namizədliyinizi dəstəkləyirdi. Builki seçkilərdə Müsavatın sizi deyil, başqa şəxsi həmin dairədə namizəd irəli sürməsini necə qarşıladınız?**

- Normal qiymətləndirirəm, kimi dəstəkləmələri onların hüququdur.

**- Rəqibiniz olacaq həmin şəxsi tanıyırsınız?**

- Bəli, yaxından tanıyıram. Mənim hörmət elədiyim ziyalılarımızdan biridir. 2005-ci il parlament seçkilərində mənim səlahiyyətli nümayəndəm olub.

**- Müsavatla bu cür dairələrlə bağlı müzakirəniz olmayıb?**

- Müsavatla seçki ilə bağlı danışıq və məsləhətləşmələrimiz olmayıb. Biz Müsavata və digər partiyalara seçkilərlə bağlı məsləhətləşmələr üçün müraciət eləmişik. Ən azı seçkinin müşahidəsi və digər başqa məsələlərdə əməkdaşlıq təklif eləmişik. Hələlik bu yöndə Müsavatdan və bəzi digər partiyalardan olumlu bir cavab almamışıq.

**- ATƏT-in Demokratlar və İnsan Haqları Bürosu parlament seçkilərində 350 qısa müddətli, 30 nəfər uzunmüddətli müşahidəçi göndərmək istəyir. Rəsmi Bakı isə buna narazılığını ortaya qoyub və bundan bir neçə dəfə az sayda müşahidəçini qəbul etməyə hazır olduqlarını bəyanatla bildiriblər. Sizcə, hakimiyyət nədən müşahidəçilərin sayının az olmasını istəyir?**

- Prezident Administrasiyasının səlahiyyətli şəxsləri və MSK beynəlxalq müşahidəçilərin mümkün qədər çox olmasının istədikləri barədə bəyanatlar səsləndirmişdilər. Sözün düzü əvvəlki bəyanatlar fonunda bu axırıncı mövqe xeyli təəccübləndirdi bizi. Nədən müşahidəçilərin az olmasını istəmələrinə gəlincə, bu sualı hakimiyyətə ünvanlasanız daha yaxşı olar.

**- İndiki vəziyyət seçkilərin demokratik keçiriləcəyinə ümid verir?**

- Azad ədalətli, demokratik seçkilər üçün lazım olan işlər aparılmayıb. Yəni seçki islahatı keçirilməyib, seçki komissiyaları tamamilə hakimiyyətin nəzarəti altındadır, bərabər təbliğat-təşviqat üçün resurslar eyni deyil, ölkədə siyasi məhbuslar problemi var. Bütün bunlar əlbəttə ki, azad, ədalətli seçkilər baxımından ciddi problemlərin olması qənaəti yaradır. Amma biz seçkidə iştirak barədə qərar verərkən həm də demokratik dəyərlər uğrunda mübarizə aparırıq, seçkiyə demokratiya uğrunda mübarizənin bir vasitəsi kimi baxırıq. Hansı şəraitdə seçkiyə getdiyimizin fərqindəyik. Seçkilərin nəticəsindən asılı olmayaraq, bunu Azərbaycanda demokratiyanın inkişafı üçün istifadə etməyə cəhd göstərəcəyik.

**- YAP-ın namizədlər siyahısını hələ açıqlamaması sizcə nə ilə bağlıdır?**

- Hər bir partiya öz seçki taktikasını özü müəyyənləşdirir. Bu, onların hüququdur. Bu məsələ YAP-a da aiddir.

**- Siz YAP-ın siyahısının açıqlanmasını gözləyirsiniz?**

- Biz öz namizədliyimizi irəli sürmüşük, partiyadan digər namizədlər də irəli sürülüb. Təbii ki, YAP-ın namizədlərinin kimliyi seçkidə iştirak baxımından maraq kəsb edir. Amma mən bu siyahının nə vaxt açıqlanmasını həlledici hesab eləmirəm.

**- "Azadlıq 2015" namizəd irəli sürdüyü 80-ə yaxın dairənin ərazisindəki minlərlə məntəqə seçki komissiyasına məşvərətçi səs hüquqlu komissiya üzvlər, müşahidəçilər göndərmək imkanına malikdirmi, insan resurslarınız yetərlidirmi?**

- Çalışırıq ki, imkanımız daxilində bu məsələləri təşkil edək.

❑ **Etibar SEYİDAĞA**



# Prezident Zakir Fərəcova elə bir tapşırıq verib ki...

## Sumqayıtın yeni başçısının dövlət rəhbərliyinin təqdirini qazanması onun vəzifədə irəli çəkilməsinə səbəb olub; gözlər Fərəcovda - bacaracaqmı?

**Xəbər verdiyimiz kimi, sentyabrın 2-də ölkə prezidenti İ.Əliyev müvafiq sərəncamlarla bir sıra rayon və şəhərlərin icra başçılarını dəyişib. Yeri dəyişdirilən icra başçılarından biri də Abşeron Rayon İH başçısı Zakir Fərəcov olub. Ölkə başçısı Fərəcovu Sumqayıt şəhərinə başçı təyin edib.**

Məsələ burasındadır ki, Abşeron ən iri rayonlardan biri olmaqla yanaşı, onun Bakının ətrafında, belə desək, şəhərin böyüyən hissəsində yerləşməsi bu rayonu hər zaman diqqət mərkəzinə çıxarıb. Ölkə başçısının Zakir Fərəcova daha böyük etimad göstərməsi gözlənilən idi.

Qeyd edək ki, Zakir Fərəcov Sumqayıta "yad adam" sayılmır. O, sumqayıtlıdır. Uzun illər bu şəhərdə yaşayıb işləyib. 1999-2004-cü illərdə isə Sumqayıt bələdiyyəsinin sədri işləyib.

Fərəcov Zakir Fərəc oğlu 1954-cü il fevral ayının 3-də Laçın rayonunun Qazıdərə kəndində anadan olub. Əmək fəaliyyətinə 1971-ci ildə Sumqayıt Superfosfat zavodunda fəhlə kimi başlayıb. 1971-ci ilin yanvar ayında Sumqayıt şəhəri Mənzil Kommunal Təsərrüfatı İstehsalat birliyində texnik işləyib. 1978-ci ildə Sumqayıt şəhəri Mənzil Kommunal Təsərrüfatı birliyində şöbə rəisi, 1981-ci ildə baş direktorun müavini, 1988-ci ildə Mənzil Kommunal İstehsalat birliyinə baş direktor təyin olunub.

**Onu yaxından tanıyan keçmiş işçisi qəzetimizə bunları deyib:** "Zakir Fərəcov Sumqayıt şəhəri Mənzil Kommunal Təsərrüfatı İstehsalat birliyində baş direktor olarkən ciddi fəaliyyəti ilə seçilib. Şəhər təsərrüfatını çox yaxşı bilir. Üstəlik, illərin təcrübəsi Zakir Fərəcovu yaxşı idarəçi kimi xarakterizə etməyə imkan verir".

Yəqin buna görə də prezident İlham Əliyev hakimiyyətə gəldikdən az sonra Z.Fərəcovu ən mürəkkəb və dağınıq bir rayona rəhbər təyin etdi. Ekspertlər bildirir ki, 10 il müddətində Z.Fərəcov Abşeronda çox ciddi işlər görüb. O, rayon ərazisini bataqlıqdan, zibillikdən təmizləyib abadlaşdırıb. Z.Fərəcovu yaxından tanıyan, onunla vaxtı ilə birlikdə işləmiş şəxslərin məlumatına görə, idarəçiliyi və təsərrüfat işini yaxşı bilməsi onu dövlət rəhbərliyinin gözündə qaldırıb. Xırdalanın abadlaşdırılması, oranın prezident tərəfindən şəhər statusu alması ilə nəticələnib.

Z.Fərəcov prezident tərəfindən 2012-ci ildə "Şöhrət" ordeni ilə təltif olunub. Bizə çatan məlumata görə, Z.Fərəcovun daha yuxarı vəzifəyə irəli çəkilməsində ilk növbədə onun özünün ölkə rəhbərliyi qarşısındakı xidmətləri dayanır. Z.Fərəcov daha az büdcə ilə Xırdalan şəhərinin abadlaşdırılmasını, infrastrukturun yenidən qurulmasını təmin edib və bu işləri şəhərə səfər edən ölkə başçısının diqqətini cəlb edib.

Z.Fərəcovun Xırdalanda tikdirdiyi Heydər Əliyev Mərkəzi dövlət rəhbərliyinin çox xoşuna gəlib. Şahidlərin dediyinə görə, prezident İlham Əliyev Xırdalana səfəri zamanı Zakir Fərəcova tikdirdiyi Heydər Əliyev Mərkəzinə görə təşəkkür edib. Dövlət başçısı hamının yanında deyib ki, rayonlarda indiyədək inşa olunan Mərkəzlərin içində ən yaxşısını Z.Fərəcov tikdirib. "Prezidentdən bu təqdiri almaq hər icra başçısına nəsib olmur" - deyə mənbə bildirib.

Sumqayıtın yeni başçısına etimadın daha bir səbəbi onun Xüsusi Dövlət Mühafizə Xidməti rəhbərliyi ilə yaxın olmasıdır. Bizə çatan bilgilərə görə, Fərəcovu XDMX rəhbərliyinə yaxın qohumluq əlaqələri bağlayır. Bizə çatan bilgilərdə o da iddia olunur ki, vəzifədə irəli çəkilməsində bu amilin də rolu olub.

Sumqayıtda yaşayan, uzun illər bu şəhərdə rəhbər vəzifə tutan digər bir şəxs müxbirimizə bildirib ki, Zakir Fərəcov Sumqayıtı abadlaşdıracağına, ən əsası, yerli əhalinin illərdən bəri yığılıb qalan sosial-iqtisadi problemlərinin həllinə dair dövlət rəhbərliyi qarşısında öhdəlik götürüb. Mənbəmiz iddia edir ki, yeni başçı bu işlərin öhdəsindən gələ biləcək. Onun sözlərinə görə, bu qənaətə gəlməsi üçün ortada nümunə var - Abşeron nümunəsi...

**Zakir Fərəcov çox ciddi yükün altına çiyin verib. Öhdəsindən gələ biləcəkmi? Bunu zaman göstərəcək...**

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 196 (6224) 5 sentyabr 2015



# İnsan da ağac kimi rişə atır...

**Hüseynbala SƏLİMOV**

**Bir neçə il, bəlkə də 20 il bundan əvvəlin söhbətidir. Rusiya-Çeçenistan müharibəsinin gərgin vaxtları idi. Onda buralarda da vəziyyət ürəkaçan deyildi, ağır idi - bəli, ağır siyasi atmosfer bir tərəfə, sosial problemlər də adamı sıxırdı...**

Qərəz, belə ağır günlərin birində bir tanışıma rast gəldim. Təzəcə salamlaşmışdıq ki, doğrusu, mən gileylənməyə başladım ki, bəs belə də ölkə olar? O, məni sakitcə dinləyəndən sonra qayıtdı ki, Çeçenistanı izləyirsənmi?

Təbii ki, izləyirdim. Özü də Çeçenistanın elə vaxtları idi ki, federal qüvvələr ölkəni tamam ələ keçirmişdi, milli qüvvələr partizan müharibəsi aparırdı...

Qərəz, nə başınızı ağrıdım, paytaxt Qroznı tamam dağılmışdı, şəhərdə soyuq və aclıq hökm sürürdü...

Tanışımın sözündən sonra bütün bunlar bir kino kadrı kimi gəlib gözüm önündən keçdi. Və o vaxt ağlıma gələn ilk fikir bu oldu ki, buna da şükür - bəli, şükür elədim ki, biz hələ yaxşı gündəyik...

İndi bunları niyə görə yazıram? Neçə gündür ki, Avropaya yürüş edən qaçqın selini göstərirlər. Adamın ağlına gələn ilk fikir bu olur ki, mən belə edə bilərdimmi? Yox, mən məcbur olub ölkəsini tərk edən insanları qınamıram. Amma bu insan seli, biri-birini itələyən adamlar, dolu vağzallar, dolu qatarlar və vaqonlardan sallaşan insanlar...

Mən belə bacarardımmı? Bilmirəm. Bəlkə də həyat adamı hər şeyə vadar edə bilir. Kim bilir?..

Amma ağlıma gələn ikinci fikir bu oldu ki, buna da şükür! Mən bilmirəm hələ qarşıda bizi hansı sınaqlar gözləyir?!.

Deyirlər ki, bəlkə yenə də bahalaşma, böhran olacaq. Hətta bir xarici ekspert yazmışdı ki, elə bir iqtisadi depressiya olacaq ki, birinci depressiya bununla müqayisədə lap uşaq oyunu kimi görünəcək...

Nə demək olar? Bircə onu deyə bilərəm ki, Allah özü qorusun... Demirəm ki, indi bizim vəziyyətimiz qibtə ediləcək səviyyədədir. Yox, sadəcə cəhd edirik.

Bəli, yaşamaq və ayaq üstə durmaq üçün cəhd edirik...

Bəlkə də ölkəni dərhal tərk edənlər daha ağıllıdırlar. Ola bilər. Amma adamı sevgiyə görə, sevdiyinə görə qınamazlar. Biz də bu ölkəni sevmişik və burada yaşamağa qərar vermişik...

Avropa mənə maraqsız görünür. Demirəm ki, burada hər şey qaydasındadır. Yox, bəzən yaşamaq uğrunda mübarizə elə bir nöqtəyə çatır ki, düşünürsən ki, bu, artıq yaşamaq deyil, olum-ölüm məsələsidir...

Amma nə etmək olar? Orada, Avropada bu küçələr yoxdur. Orada bu küləklər yoxdur. Orada bu insanlar yoxdur...

Hər dəfə bu küçələri, bu küləkləri, bu insanları yamanlasaq da, qarasınca o ki var, deyinsək də, yenə də onlarsız yaşaya bilmirik...

Burada çox şey doğmadır. Bir filmdə əlini İçərişəhərin evlərinin divarlarına sürtə-sürtə yolu tapan kor kişini göstərirdilər. Bu şəhər, bu ölkə, onun mərkəzi, əyaləti, qərəz, hamısı bizə əzizdir. Tale elə gətirib ki, mən heç də səfalı, göz oxşayan, gözəl yerlərdə, gözəl mənzərəsi olan rayonda və ya kənd yerində doğulub böyüməmişəm. Adi aran rayonu olub mənim vətənim - yayda cəhənnəm kimi isti, qışda küləkli...

Amma mən o rayonu sevmişəm. İndi də o rayon mənim üçün dünyanın ən gözəl məskənidir... Mənə elə gəlir ki, orada, o yerdə mən torpağı hiss edirəm, havanı hiss edirəm, küləyi başa düşürəm...

Avropanın gördüyüm bir-iki ölkəsində mən o "elektrik"i ala bilmədim. Oralar mənə doğma təsir bağışlamadı - bəli, gözəl idi, maraqlı idi, amma "elektrik" yox idi...

Burada hər bir küçə səni harasa aparır... Orada bilmirsən ki, bu küçə səni hara aparacaq? Burada hər küçə sanki həm də sənin ayaqlarının izini yaşadır... Avropanın küçələri çox gözəl olsa da o küçələrdə sənin ayaqlarının izi yoxdur.

Səndən əvvəlkilərin ayaqlarının izi yoxdur...

Mən kifayət qədər liberal düşüncəli adamam. Amma kosmopolit ola bilmədim, bacarmadım. Ola biləsydim, bəlkə mən də çoxdan hansısa Avropa ölkəsində idim. Amma bacarmadım...

Mənə elə gəlir ki, insan elə-belə məskən salmır... İllər boyu insan məskəni və eləcə də məskən insanı yoğurub-bişirir və beləcə, birimiz Vətən, o birimiz də Vətəndaş oluruq...

**Həm də görünür, yaş da sözünü deyir. Yaş da məntiqini diqtə edir... Təbii ki, belədir. Yaşa dolduqca adam da ağac kimi rişə atır. Və onu bu torpaqdan qoparmaq artıq asan olmur. Elə ona görə də deyirəm ki, hə, bunlara da şükür...**

# Akademiklərin yazdıqları dərs kitablarında biabırçı ifadələr

**Hər il olduğu kimi bu il də orta məktəb dərsliklərində qüsurlar, səhvlər var. Əvvəlcə mətbuatda və sosial şəbəkələrdə "Azərbaycan Tarixi" adlı əyani vəsaitin Ermənistanın bayrağı fonunda nəşr edilməsi məsələsi müzakirə edildi. Həmin kitabın hansı ildə dərc olunması göstərilməsə də, onun qəbul imtahanlarına hazırlaşan abituriyentlərə aid olduğu görünür.**

Azərbaycanın tarixindən bəhs edən kitabın torpaqlarımızı işğal edən düşmən ölkənin bayrağı rəngində olması insanları qəzəbləndirib. Onlar bunu Azərbaycana təhqir kimi qəbul ediblər.

Bundan başqa 10-cu sinif şagirdləri üçün nəşr edilmiş "Azərbaycan dili" dərsliyində söyüş və təhqirlər işlədilib. Dərsliyin içindəki mətnlər biabırçı vəziyyətdədir. Dərslikdə "binamus", "qancıq", "küçük" kimi sözlərdən istifadə edilib ki, bu da şagirdlərə bilik və tərbiyə vermir.

**"XXI Əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev** Azərbaycanda normal dərslik yazılmasının problem olaraq qaldığını dedi: "Təhsil Nazirliyinin nəzdində Dərslikləri Qiymətləndirmə Şurası yaradılanda bizim bu qurumdan gözləntilərimiz çox idi. Amma bu qurum ölü doğulmuş uşağa bənzəyir. Elə dərsliklərdə problemlər bu qurumdan sonra yarandı. Bu qurum dərslik yazılmasının inhisara alınmasını gerçəkləşdirdi. "İdeal dərslik" yazmaq işini gözdən saldı. Keçmiş təhsil naziri riyaziyyat və həndəsədən 14 dərslik yazdı. "Fizika", "Ədəbiyyat", "Azərbaycan dili", "Tarix" dərsliklərinin yazılması inhisara alındı. Nəticə göz qabağındadır.



**Etibar Əliyev:** "Adam dərsliklərin çoxunu səhvlər ucbatından açmağa utanır"



**Cəsarət Valehov:** "Burada söhbət vulqar sözlərin tanıtımı ilə bağlı məqamdan gedir"

Təhsil Nazirliyinin bəzi rəsmiləri indi də "ideal dərslik yoxdur" ifadəsini işlədirlər. Bu, boş söhbətdir və nöqsanları malalamağa xidmət edir. Dərsliklər ideal olmalı, hətta nöqtə və vergül xətalarına da yol verilməməlidir.

Ümumtəhsil sistemində dərslik siyasəti sənədində yazılıb: dərsliklərdə şagirdlərin Azərbaycan xalqının milli, mənəvi və mədəni dəyərləri ruhunda tərbiyə olunmasına, onların öz ailəsini, xalqını, vətənini sevməsinə, insan haqlarına və bəşəri dəyərlərə hörmət etməsinə yönələn ideyalar olmalıdır".

**Ekspert dərsliklərdə şagirdlərin yaş psixologiyasının və fizioloji xüsusiyyətlərinin nəzərə alınmasının vacib olduğunu bildirdi:** "İndi biz bu dəyərləri qoyub dərsliklərdə söyüş, ədəbsiz ifadələr, səhvlər aşkar edirik. Dərsliklərin çoxunu səhvlər ucbatından adam açmağa belə utanır. Sizin dediyiniz dərsliyin müəlliflərindən biri akademik, digəri isə Akademiyanın müxbir üzvüdür. İndi bu adamlar belə mənasız dərslik yazırlarsa, onda orta məktəb müəllimləri necə dərslik yazmalıdır? Keçmiş təhsil nazirinin buraxdığı ciddi səhvlərdən biri də orta məktəb müəllimlərinin dərslik yazmağa cəlb olunması idi. Bunu birmənalı şəkildə qadağan etmək lazımdır. Bu gün hələ də fənlər üzrə dərslik yazmaq təcrübəsi olan qruplar formalaşmayıb. Buna heç maraq da göstərilmir.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının 2012-2014-cü tədris illərində ümumtəhsil fənləri üzrə dərslik və dərs vəsaitlərinin monitorinqinin nəticəsində I-V siniflər üzrə "Riyaziyyat" dərsliklərində, I-V siniflər üzrə "Azərbaycan dili" dərsliklərində, V-IV siniflər üzrə "Ədəbiyyat" dərsliklərində və "Həyat bilgisi" dərsliklərində saysız-hesabsız ciddi qüsurlar aşkar olunmuşdu. Bütün bunlara baxmayaraq həmin dərslik müəllifləri öz işlərini yenə də davam etdirirlər. Elə dərslik müəllifləri var ki, tutduğu vəzifəsindən və elmi adından asılı olmayaraq onlara dərslik yazmağı qəti şəkildə qadağan etmək lazımdır. Dərslik və dərs vəsaitlərinin yazılması xüsusi peşə növüdür".

Mövzu ilə bağlı **Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehovun** da fikirlərini öyrəndik: "Bu, əvvəlki məlumatlardır. Ola bilsin ki, saytlar bu məsələni yenidən dövriyyəyə gətiriblər. Burada söhbət vulqar sözlərin tanıtımı ilə bağlı məqamdan gedir".

C.Valehov bildirib ki, ümumi təhsil müəssisələrinin X sinif "Azərbaycan dili" dərsliyində müvafiq mövzunun tərkibində ümumişlək və ümumişlək olmayan dialekt sözlərdən istifadə olunub. Dildə işlənən kobud ifadələr, nalayiq sözlər isə vulqar sözlər adlanır. Belə sözlər, adətən bədii əsərlərdə surətlərin dilində, yaxud mənfi obrazları səciyyələndirmək üçün müəllif dilində işlədilir.

❑ **Günel MANAFLI**

# Asim Mollazadə "Washington Post"a cavab yazıb

## "ABŞ mediası Azərbaycana qara yaxır: "Bu, necə və nəyə görə dayandırılmalıdır?"

**ABŞ-ın 35 milyonluq oxucu auditoriyası olan məşhur İndependent Journal Review on-line nəşri Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Demokratik İslahatlar Partiyasının sədri, Asim Mollazadənin məqaləsini dərc edib. "Yeni Musavat" ADİP-in mətbuat xidmətinə istinadən məqalənin tərcüməsini sizə təqdim edir:**



A.Mollazadə ABŞ mətbuatının anti-Azərbaycan yazılarına işarə edərək yazıb ki, Azərbaycan Respublikası demək olar ki, hər gün qarayaxmalara və böhtanlara tuş gəlir. Müəllif qeyd edib ki, Amerikanın məşhur və qeyri-məşhur media orqanlarında nəşr olunan məqalələr bu qızğın kampaniyanı özündə əks etdirir: ""Washington Post" qəzetindən o yana keçməyə ehtiyacımız da yoxdur. Qəzetin materiallarındakı birtərəfli və yarımçıq məlumatlar insanı həqiqətən də heyrətlənməyə sövq edir. "Washington Post"un balaca olsa da, önəmli ölkə olan Azərbaycan haqqında nəşr etdiyi materialların həcmi olduqca ziyanlı aludəçiliyi gözlər önünə sərir. Belə media orqanlarındakı məqalə səhifələrindəki bir hissə adətən özlərini ekspert adlandıran insan hüquqları "aktivistləri"nin və qondarma "jurnalistlərin", hətta xoşniyyətli keçmiş məhbusların fikirləri üçün rezerv edilir. Azərbaycanın qonşuluğundakı dövlətlərdən birinin şəxsən ödədiyi sifariş əsasında Azərbaycan haqqında ziddiyyətli əhvalatlar uyduran şəxs sadəcə buna iddia edir deyə, avtomatik olaraq insan hüquqları aktivisti və ya juralistmi hesab edilməlidir? "Washington Post" və digər mətbuat orqanlarının Azərbaycanda "azad mətbuat"a dəstək adı ilə dəstək verdiyi müxalif media və azad, tənqidi fikir səsləndirənlər doğrudanmı, vacib problemləri qaldırır və ictimaiyyəti maarifləndirirlər? Yoxsa onlar sadəcə xarici dövlətlərin, əksərən qaranlıq və qeyri-şəffaf mənbələrin maliyyəsi əsasındakı sifarişləri yerinə yetirirlər? Məsələn, bu olduqca karıxdırıcı faktdır ki, tamamilə ABŞ vətəndaşlarının vergiləri əsasında maliyyələşən Azad Avropa/Azadlıq radioları necəsə "müstəqil" yayım orqanlarıdır. İran Dövlət Radiosu və "Russia Today" də ola bilsin müstəqildirlər və "Washington Post"a görə dəstəklənməlidirlər".

**A.Mollazadə daha sonra yazıb:** "Unutmaq olmaz ki, Azərbaycanda demokratiya inkişaf etməkdədir...İnkişaf edən demokratiya kimi Azərbaycan Respublikası demokratik islahatlar üçün ölkə daxilində siyasi, ictimai və biznes idarəçilərinin artımına fokuslanıb. Belə məqsədlər vaxt tələb edir. Çe Gevaranın ideyası olan inqilab ixracı kimi, demokratiya da ixrac məhsulu sayıla bilməz: bunların hər ikisi yanlış ideyadır. Hələ də Sovet sayağı təsir altında qalan ölkələrin mətbuatının oynadığı rol Azərbaycana olan mənfi təsirlərin artımında vacib rol oynayır. Mətbuat və dövlət anlayışı çərçivəsində Ermənistan əsas nümunədir. Ciddi şəkildə Rusiyanın təsiri altında olan Erməni lobbisi Azərbaycanın hədəf alınmasında demokratiya sözündən silah kimi yararlanır, ancaq bir fakt undulur ki, bir çox Amerika media orqanlarında Azərbaycan dünyanın ən inkişaf etməkdə olan demokratiyalarından biri kimi göstərilir. Ermənistanın və Rusiyanın məqsədləri aydındır: inkişaf etməkdə olan demokratiyaları Qərbə tərəf deyil, Rusiyaya tərəf getməyə məcbur etmək".

❑ **Hazırladı: Vüqar MURAD**

YENİ MÜSAVAT
N 196 (6224) 5 sentyabr 2015



# Manat əlavə xərc tələb edəcək və yenə ucuzlaşacaq...

## Ekspertlər bildirirlər ki, parlament seçkiləri ərəfəsi devalvasiya valyuta ehtiyatlarının xərclənməsi hesabına önlənəcək, bir neçə aya isə ucuzlaşma qaçılmazdır...

**ABŞ Mərkəzi Bankı (*FED*) rəsmilərinin 16-17 sentyabr toplantısında çətin bir qərar verməsi gözlənilir. Faiz dərəcələrinin artırılacağı müzakirə mövzusudur. 24-31 avqust tarixlərində "Bloomberg News"un sorğusuna qatılan 54 iqtisadçının 48 faizi faiz dərəcəsinin sentyabr ayında artırılacağını gözləyir. 7-12 avqust tarixləri arasında keçirilən sorğuda bu nisbət 77 faiz səviyyəsində idi. Ancaq son sorğudakı səviyyə yenə də ilk faiz artımına dekabr ayında başlanılacağı proqnozunda olanlardan (24 %) iki dəfə çoxdur. İqtisadçıların 17 %-i isə faiz artımının oktyabrda olacağını bildirib.**

Sentyabr ayında dəyişiklik olacağını deyənlər ABŞ iqtisadiyyatının qlobal bazarlardakı dalğalanmanın öhdəsindən gələcək gücə malik olduğunu düşünürlər. Dekabr ayını nəzərdə tutanlar isə inflyasiya faizlərinin aşağı olması səbəbindən pul siyasətini sərtləşdirməyə tələsməyə ehtiyac olmadığını bildirir.

Əksər ekspertlər bildirirlər ki, neftin ucuzlaşması ilə yanaşı, Azərbaycan manatına qarşı daha bir təzyiq ABŞ Mərkəzi Bankının (FED) faiz dərəcələri ilə bağlı çıxaracağı qərar ola bilər. Ötən ilin aprel ayından etibarən FED uçot dərəcələrinin artırılması üçün bir neçə toplantı çağırsa da, bu məsələ hər dəfə ertələnib. İndi bütün birjaların diqqəti ABŞ Mərkəzi Bankının sentyabr ayında keçirəcəyi toplantıdadır. Proqnozlara görə, bu ay FED faiz dərəcələrini 1 faiz bəndində qaldıracaq (hazırda 0,62 faizdir. Uçot dərəcələri artarsa, 1,62 faiz olacaq).

Dünya birjaları, beynəlxalq təşkilatların nədən bütün diqqəti FED-in qərarına yönəlib? Dollara, dünya bazarına, milli valyutalara, xüsusilə manata hansı təsirləri ola bilər? Ekspertlər məsələ ətrafında fikirlərini musavat.com-a bölüşüblər.

**Ekspert Əkrəm Həsənov**un sözlərinə görə, FED faiz dərəcəsini artırsa, məntiqlə dollar hər yerdə bahalaşmalıdır: "Ona görə ki, bu halda dollarla sərmayə etmək daha gəlirli olacaq, çünki faiz dərəcəsi artır. Buna görə də dollar uğrunda rəqabət artacaq, ona dünyada tələbat artacaq. Deməli, dolların dəyəri də artacaq. Sentyabrda FED-in belə qərarı gözlənilir. Amma bu, o demək deyil ki, avtomatik olaraq bütün ölkələrdə dollar bahalaşacaq. Bəziləri müəyyən subyektiv səbəblərdən milli valyutalarını ucuzlaşdırmaya bilər. Məsələn, Azərbaycan. Parlament seçkiləri ərəfəsi bizdə devalvasiya olacağını gözləmirəm. Böyük ehtimalla, valyuta ehtiyatlarının xərclənməsi hesabına manat ucuzlasmayacaq hələlik. Amma təbii, valyuta ehtiyatları sonsuz deyil. Nəticədə bir neçə aya devalvasiya onsuz da olacaq".

**Ekspert Qubad İbadoğlu**nun sözlərinə görə isə böyük ehtimalla, Açıq Bazar Əməliyyatları üzrə Federal Komitənin sentyabrın 16-17-də gözlənilən növbəti toplantısında bununla bağlı qərar qəbul olmayacaq: "Çox güman ki, FED faiz dərəcələrinin artırılması qərarını ya bu ilin sonunda və ya da gələn ilin əvvəlində verəcək. Əgər qərarın qəbulu bu ilə təsadüf edərsə, onun ABFK-nin dekabrın 15-16-na təyin olunan toplantısında veriləcəyi gözlənilir. Həmin tarixə qədər ABFK-in 2 toplantısı olsa da, ABŞ iqtisadiyyatında pozitiv meyllərin müşahidə olunması, xüsusilə də mövcud və yeni iş yerlərindən istifadə səviyyəsinin yüksəlməsi hesabına işsizliyin azalması, enerji daşıyıcılarının qiymətinin ucuzlaşması ilə inflyasiyanın sabitləşməsi bu qərarın müəyyən müddətə qədər ləngidilməsinə əsaslar yarada bilər. ABŞ iqtisadçıları belə bir qərarın dünya iqtisadiyyatına, xüsusilə də inkişaf etməkdə olan Çin kimi nəhəng ölkələrin bazarlarına təsirlərinin fəsadlarını da geniş müzakirə edirlər. Hesab edirəm ki, bu amil ABFK-nin məlum qərarı növbəti iclaslarda təxirə salmaq üçün mövcud olan arqumentlərin gücünü artırır. Belə ki, federal uçot dərəcəsinin artımı dolların möhkəmlənməsi üçü potensial imkan yaradır. Çünki, bu qərar buxovlayıcı xarakter daşımaqla pul kütləsinin məhdudlaşmasına, faiz dərəcələrinin yüksəlməsinə xidmət edir. Beləliklə də yüksək faiz dərəcələri dolların digər valyutalara nəzərən möhkəmlənməsini və son nəticədə də dollarla ödənilən əmtəələrin qiymətlərinin ucuzlaşmasını şərtləndirir. Belə olan halda da dollarla əməliyyat aparanlar, əsasən ABŞ şirkətləri və istehlakçıları hər xərclənən 1 dollara görə daha çox əmtəə ala bilirlər. Deməli, belə olan halda ABŞ-ın federal uçot dərəcəsinin artımı tədiyyə balansında yüksək kəsirə malik ölkələrin iqtisadiyyatına zərbə vurur. Belə bir qərarın bizə birbaşa təsirləri tədiyyə balansında böyük kəsiri olan ölkələrin iqtisadiyyatına olacaq".

**Ekspertin sözlərinə görə, Mərkəzi Bankın açıqladığı informasiyaya görə, 2015-cü ilin 1-ci rübünün sonuna Azərbaycanın cari əməliyyatlar hesabında 58 milyon dollar məbləğində profisit yaranıb:** "Halbuki, həmin göstərici 2012-ci ilin eyni dövründə 4 milyard 643 milyon, 2013-cü ildə 4 milyard 193 milyon, 2014-cü ildə 3 milyard 333 milyon dollar olub. Göründüyü kimi, tədiyyə balansının cari hesabının profisitinin sürətlə azalır, son göstəricinin bu ilin aprel ayında cəmisi 58 milyon dollar olduğunu və azalma tempinin sürətlə getdiyini nəzərə alsaq, hazırda bu göstəricinin pozitiv olması da şübhə doğurur. Tədiyyə balansının kəsirinin yaranması və artması tendensiya qərarlaşacağı halda bu qərar Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməyəcək. Deməli, çox şey dünya bazarında neftin qiymətlərindən, məhsul və xidmətlərin ticarətinin müsbət saldosunun səviyyəsindən asılı olacaq. Bu qərarın konkret olaraq Azərbaycan manatına mənfi təsirində xarici ticarət və büdcə saldosu əhəmiyyətli rol oynayacaq. Odur ki, indidən Azərbaycan iqtisadiyyatını və bazar iştirakçılarını bu qərarın mümkün mənfi təsirlərinə hazırlamaq lazımdır".

**Ekspert Pərviz Heydərov** isə deyib ki, FED-in baza faiz dərəcəsini yüksəldəcəyi o qədər də gözlənilmir: "Düzdür, ABŞ iqtisadiyyatında artım gözlənildiyindən də yaxşı səviyyədə davam edir. Belə ki, bu ilin II rübündə ölkədə ümumi daxili məhsul üzrə illik artım 3 faizdən çox təşkil edib. Odur ki, bu fonda FES-in sentyabrda baza faiz dərəcəsini yüksəltmək haqda qərar verib, verməyəcəyi həqiqətən ciddi maraq doğurur. Çünki FED-in əlində indi bunun üçün 2008-ci ildəki qlobal maliyyə və iqtisadi böhrandan sonra ən əlverişli əsas və şərait yaranıb.

Ancaq məsələ bundadır ki, baza faiz dərəcəsinin 0,01 faiz də olsa belə yüksəlişi haqda qərar qəbul edilərsə, bu, dünya iqtisadiyyatı üçün fəlakət demək olacaq. Amma ortada Çin amili məsələsi var. Belə ki, Çinin yuanını devalvasiya etməsindən sonra FES çətin ki, baza faiz dərəcəsini artırsın. İkincisi də ki, FED-in baza faiz dərəcəsinə dair siyasəti ilə Azərbaycanın milli valyutası arasında heç bir əlaqə yoxdur. Lakin bayaq da qeyd etdik ki, baza faiz dərəcəsinin 0,01 faiz də olsa belə yüksəlişi dünya iqtisadiyyatı üçün fəlakət deməkdir. Belə ki, dollar daha da möhkəmlənəcək və buna əsasən də dünyanın bütün digər aparıcı valyutaları dəyərdən düşəcək. Təbii ki, qeyd olunan fonda manatın dəyərinin saxlanması xərcləri də bir az da artacaq".

❑ **Röya RƏFİYEVA**

# Azərbaycanda 7 bal gücündə zəlzələ oldu, əhali təşvişə düşdü



## Ən güclü təkanlar Şəkidə qeyd alındı; Göyçayda bir qadın zəlzələ nəticəsində dünyasını dəyişdi; Ağdaşda isə iki qadın özünü eyvandan atdı

**Sentyabrın 4-də Azərbaycan ərazisində zəlzələ baş verib. Zəlzələ saat 09.49 radələrində Ucar, Göyçay, Ağdaş, Şamaxı, Zaqatala, Balakən, Qəbələ, İsmayıllı, Tovuz, Salyan, Sabirabad rayonlarında, Şəki, Şirvan və Mingəçevir şəhərlərində qeydə alınıb. Zəlzələnin episentri sayılan Şəkidə 7 bal, yaxın yaşayış məntəqələrində isə 6-5 bala qədər hiss olunub.**

Zəlzələ böyük ərazini əhatə etdiyindən əhali təşvişə düşüb. Zəlzələ nəticəsində insan tələfatı olmasa da dağıntılar qeydə alınıb. Şəki şəhərinin icra qurumlarından bildirilib ki, zəlzələnin episentrinə yaxın ərazilərdə - Turan qəsəbəsi, Sarıca kəndindəki köhnə tikililərdə çatlar yaranıb. Rayonunun Sarıca kəndində uşaq bağçası zəlzələdən sonra dağıntılara məruz qalıb.

Göyçayda isə zəlzələ nəticəsində iki uşaq anası su quyusuna düşərək ölüb. Rayonun Məlikkənd kənd sakini 1987-ci il təvəllüdlü İbadova Ruhiyyə Mustafa qızı zəlzələ baş verən zaman yaşadığı evin həyat yanı sahəsində su arxının yanında olub. Təkanların təsirindən ayağı sürüşərək su arxına düşüb. Orada elektrik enerjisi ilə işləyən su motoru işlək vəziyyətdə olduğundan, cərəyan R.İbadovanı öldürüb.

Ağdaşda da zəlzələ ziyansız ötüşməyib. Rayonda bir çox evlərdə çatlar, müxtəlif zədələr yaranıb. Bəzi evlərdə və inzibati binalarda pəncərə şüşələri sınıb. Silkələnmə nəticəsində qab-qacaq və digər əşyalar düşərək qırılıb. Ağdaş şəhərinin Yusif Nəbiyev küçəsində bir evin hasarı uçub. Zəlzələ zamanı iki qadın qorxu və həyəcandan özünü yaşadığı evin ikinci mərtəbəsindən ataraq ağır kəllə-beyin travması və sınıq xəsarətləri alıblar. Bir nəfər isə qaçarkən pilləkəndən yıxılaraq xəsarət alıb.

Azərbaycanda baş verən güclü zəlzələ nəticəsində Ağdam şəhər mərkəzindən 6 kilometr aralıda yerləşən zərər çəkmiş evdən də fotolar yayılıb.

Zəlzələ Ermənistan və Dağlıq Qarabağda da hiss olunub. AzVision.az xəbər verir ki, Ermənistanın Fövqəladə Hallar Nazirliyinin məlumatına əsasən, İrəvanda 3-4 , Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionunda isə 4-5 bal gücündə zəlzələ olub. Bu gün səhər İranın Ərdəbil əyalətinin Azərbaycanın cənub bölgəsinə yaxın Parsabad, Biləsuvar və Germi şəhərlərində də güclü zəlzələ baş verib.

**Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) mətbuat xidmətinin rəhbəri Vüsalə Rafiqqızı zəlzələ ilə bağlı bildirib ki, xırda təkanlar davam edə bilər:** "Bizə bu zəlzələdən sonra həm icra hakimiyyətlərindən, jurnalistlərdən, həm də yerli camaatdan zənglər gəlir. Müxtəlif məlumatlar verirlər. Ancaq Azərbaycanda seysmik vəziyyət fərqlidir. Məsələn, Bakıda eyni küçənin sağında seysmikliyin vəziyyəti soldakından fərqlidir. Amma bir məsələ var ki, biz həmişə demişik ki, şimal-qərb zonası, Şəki, Zaqatala, Şamaxı, İsmayıllı, Xəzər dənizi, cənubda Talış dağlıq sistemi, Gəncədə Kəpəz, Daşkəsən hissələri seysmik baxımdan aktiv zonalardır. Seysmik baxımdan aktiv olan zonada da zaman-zaman güclü və zəif zəlzələlər olur. Bu zəlzələdə həmin o sıradan zəlzələlərdən biridir. Sadəcə olaraq güclü zəlzələdir".

**Zəlzələnin yenidən baş verib verməyəcəyinə gəlincə isə V.Rafiqqızı bunun dəqiqliyi ilə əvvəlcədən bilməyin mümkünsüz olduğunu dedi:** "Seysmologiya elmi zəlzələnin əvvəlcədən xəbər edilməsinin mümkünlüyü ilə bağlı olan suala hələ ki, cavab tapa bilməyib. Heç kəs zəlzələnin günü, saatı, yeri ilə bağlı dəqiq məlumat deyə bilməz. Biz sadəcə olaraq bunu deyə bilərik ki, güclü təkan baş verəndən sonra həmin ərazidə xırda avtoşoklar gedir. Bu avtoşoklar isə hiss olunan səviyyədə olmur".

Zəlzələdən sonra "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin müvafiq qurumları gücləndirilmiş iş rejiminə keçib. Hollarda, körpülərdə, stansiyalarda yol, enerji təchizatı, işarəvermə və rabitə sahələrinin zəlzələdən ziyan görüb-görməməsini yoxlanılır.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 196 (6224) 5 sentyabr 2015

# Marşrut avtobusları ilə bağlı yeni qaydalar tətbiq olundu

**Nəqliyyat Nazirliyi "Bakı Sərnişin Nəqliyyatı və Yük Daşımaları" MMC 62, 70 və 92 nömrəli avtobus marşrut xətlərində də dəyişiklik edilib. Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin mətbuat katibi Şəfa Mehmanqızından aldığımız məlumata görə, bu barədə qərar Bakı şəhərinin marşrut xətlərində təkmilləşdirmə işlərininin aparılması və sakinlərin müraciətlərini nəzərə alaraq verilib.**




Belə ki, 62 nömrəli marşrutun xəttində 01.09.2015-ci il tarixindən etibarən dəyişiklik edilərək avtobusların hərəkəti Sabunçu qəs. - "Koroğlu" metro st. istiqamətində Heydər Əliyev prospekti - Atletlər kəndi - X.Rza küç. - nəqliyyat qovşağı - Z.Bünyadov pr. və sonra mövcud xətti ilə, əks istiqaməti mövcud xətti ilə təşkil edilib.

Musavat.com xəbər verir ki, 70 nömrəli marşrutun xəttində 01.09.2015-ci il tarixindən etibarən dəyişiklik edilərək avtobusların hərəkəti "Neftçilər" metro st. - Q.Qarayev pr. - Ə.Vəliyev küç. - M.Abbasov küç. - M.Əliyev küç. - Elektrik qatarlarının Deposunadək və əks istiqaməti də həmin xətlə təşkil edilib.

Qurumdan xəbər verilir ki, 92 nömrəli marşrutun xəttində 03.09.2015-ci il tarixindən etibarən dəyişiklik edilərək avtobusların hərəkəti Yeni Avtovağzal - Sumqayıt şossesi - Moskva pr. - A.Mustafayev küç. - Cavadxan küç. - "M.Əcəmi" metro st. və əks istiqaməti M.Əcəmi" metro st - Cavadxan küç. - A.Məhərrəmov küç. və sonra mövcud xətti ilə təşkil edilib.

Bundan əlavə, paytaxtdan "Sədərək" ticarət mərkəzinə gediş-gəlişin asanlaşdırılması istiqamətində də addım atılıb. "Bakı Sərnişin Nəqliyyatı və Yük Daşımaları" MMC Səbail rayonu sakinlərinin "Sədərək" ticarət mərkəzi ilə birbaşa nəqliyyat əlaqəsinin yaradılmasına dair çoxsaylı müraciətlərini nəzərə alaraq hərəkət cədvəli "Sədərək" ticarət mərkəzi - Salyan şossesi - Bibiheybət məscidi - 20-ci sahə - Bibiheybət yolu - M.Useynov küç. - O.Abbasov küç. kəsişməsindən dönməklə yeni 120 nömrəli marşrut xətti təşkil edilib. 120 saylı marşrut xəttinin əks istiqaməti Ə.Yaqubov - Bibiheybət yolu - 20-ci sahə - Muxtarov küç. - Bibiheybət məscidi - Salyan şossesi - "Sədərək" ticarət mərkəzidir. Həmçinin, Lökbatan qəsəbəsi sakinlərinin də çoxsaylı müraciətləri nəzərə alınaraq 03.09.2015-ci il tarixdən etibarən 124 nömrəli marşrutun xəttində dəyişiklik edilərək avtobusların hərəkəti Lökbatan qəs. - Binə T/M - Lökbatan dairəsi - Salyan şossesi - 20-ci sahə - Bibiheybət yolu - M.Useynov küç. - O.Abbasov küç. kəsişməsindən dönməklə və əks istiqaməti Ə.Yaqubov küç. - Bibiheybət yolu - 20-ci sahə - Salyan şossesi - Lökbatan dairəsi - Binə T/M - Lökbatan qəs. olmaqla təşkil edilib.

❑ **Cavid TURAN**

# Bərdənin icra başçısından 700 bal toplayan tələbəyə jest

## **Vidadi İsayev:** "Öz maaşımdan 200 manat hər ay sənə göndərəcəyəm"

**Bərdə Rayon İcra Hakimiyyətinin başçısı ali məktəblərə yüksək balla qəbul olan tələbələrlə görüş keçirib. Görüşdə qeyd edilib ki, Bərdə rayonu üzrə bu il 384 tələbə müxtəlif ali məktəblərə daxil qəbul olub, onlardan 50 nəfər 500 baldan yuxarı, 30 nəfər 600 baldan yuxarı nəticə göstərib. 1 nəfər isə maksimum nəticə əldə edərək 700 bal toplayıb.**






Bərdə Rayon İcra Hakimiyyətinin rəhbəri Vidadi İsayev mədəniyyət evinin binasında keçirilən görüş zamanı qəbul imtahanında yüksək nəticə göstərən tələbələri təbrik edib, onları müxtəlif hədiyyələrlə mükafatlandırıb.

Qeyd edək ki, tələbələrin mükafatlandırılması zamanı maraqlı anlar yaşanıb.

Əvvəlcə icra başçısı 700 bal toplayan Zərifə Əliyeva adına orta məktəbin şagirdi, Bakı Ali Neft Məktəbinə qəbul olan Arzu Həsənlini təbrik edib. İcra başçısı tələbə qızdan nə cür hədiyyə istədiyini soruşub. Qız "İphone" markalı telefon istədiyini bildirib. İH başçısı A.Həsənliyə telefon almağı rayon təhsil şöbəsinin müdiri Rzaqulu Şərifova tapşırıb və o, tədbirə hazırlıqlı gəldiyindən dərhal hədiyyəni tələbəyə təqdim edib.

Daha sonra V.İsayev tələbədən kompüteri olub-olmadığını soruşub və "xeyr" cavabı aldıqdan sonra rayonun polis rəisinə A.Həsənliyə yaxşı bir noutbuk almasını tapşırıb.

Bundan başqa, İH başçısı tələbənin uğur qazanmasında əməyi olan yaşlı nənəsinin tribunaya çağırıb və bələdiyyə sədrinə bu ailəyə maddi yardım göstərməsini tapşıraraq, deyib ki, ona 500 manat da pul yardım edilsin.

V.İsayev özü isə 700 bal toplayan tələbəyə iki televizor bağışlayıb, qeyd edib ki, televizorlardan biri Arzu Həsənlinin ailəsinin yaşadığı evdə, digəri isə tələbənin qalacağı yataqxanada quraşdırılsın. İH başçısı təhsil aldığı müddət ərzində hər ay tələbəyə öz maaşından 200 manat təqaüd ayıracağını da bildirib.

Öz qələmini Arzu Həsənliyə bağışlayan rayon rəhbəri ona ali məktəbi qırmızı diplomla bitirməyi arzulayıb.

Görüş tələbələr üçün konsert proqramı ilə davam edib.

**Tədbir iştirakçılarından əldə etdiyimiz məlumata görə, 500 baldan yuxarı nəticə göstərən tələbələrə verilən hədiyyələr həmin məktəbin direktorları tərəfindən alınıb. Daha sonra hədiyyələr təqdim edilmək üçün icra başçısına verilib.**

❑ **M.SALMANOV**
**Fotolar müəllifindir**



# Ziya Məmmədovun 30 illik yolu 5 ilə darmadağın olub

## Yararsız hala düşən Bakı-Sumqayıt yolu; yaxud nəqliyyat nazirinin "yamaqlı şalvar" siyasəti...

**630 milyon manat dövlət vəsaiti hesabına yenidən qurulan və 2010-cu ildə tam istifadəyə verilən Bakı-Sumqayıt-Quba yolu yararsız hala düşüb.**

Xüsusilə yolun Saray və Ceyranbatan qəsəbələrindən keçən hissəsi darmadağın olub. Əslində həmin hissələrdə yol daha öncə yararsız hala düşüb; beton plitələr bir-birindən aralanıb, çatlar, çökmələr, qabarmalar meydana gəlmişdi. Yolun inşasını həyata keçirən Nəqliyyat Nazirliyi "çatlaqları örtmək" siyasəti həyata keçirərək, dəfələrlə şosenin dağılan hissələrini yamayıb. Hazırda yol o vəziyyətə düşüb ki, avtomobillər təxminən kənd yolundakı kimi hərəkət edirlər.

Faktiki olaraq 630 milyon manata başa gəlmiş yol bu gün yamaqlı şalvarı xatırladır.

Daha öncələr də bu haqda "Yeni Müsavat"da reportajlar dərc edilib. Hər dəfə də Nəqliyyat Nazirliyi məsələyə belə şərh verib ki, dağılan hissələrdə təmir-bərpa, daha dəqiq desək, yamama işləri aparılıb. Bu, təxminən ona bənzəyir ki, çox bahalı bir kostyum alırsan, qısa müddətdə o cırılır. Firmaya şikayət edəndə isə "get yamaq vur geyin" məsləhəti verilir...

❑ **T.ƏHMƏDLİ**







YENİ MÜSAVAT
N 196 (6224) 5 sentyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Azərbaycan-Türkiyə təlimlərinə Moskva erməni təxribatları ilə cavab verir

## Düşmənin artan müharibə xofunun və sərhəddə qəfil hərbi təlimə başlamasının ilginc səbəbi; rusiyalı ekspert: "Qarabağda savaşın qızışma ehtimalı həmişə var..."

**Dağlıq Qarabağ münaqişəsi zonasında və Azərbaycan-Ermənistan sərhədində vəziyyət yenidən gərginləşib, hər iki tərəfdən itkilər var. Ermənilər adəti üzrə Azərbaycanı atəşkəsi pozmaqda, getdikcə daha iriçaplı silahlar və toplardan istifadə eləməkdə suçlasa da, faktlar düşmənin özünün əleyhinədir.**

**Diqqəti ilk növbədə qarşıdurmaların Azərbaycanla Türkiyənin hərbi-hava qüvvələrini birgə keçirdiyi növbəti hərbi təlimlərə təsadüf eləməsi çəkir.**



Azərbaycanla Türkiyənin vaxtaşırı ortaq güc nümayiş etdirməsi, bütövlükdə Bakı ilə Ankaranın hərbi-strateji sahələrdə əməkdaşlığının getdikcə genişlənməsi isə sözsüz ki, İrəvanla bərabər Moskvanı da həmişə qıcıqlandırıb. Bu xüsusda təmas xəttindəki son konfrontasiyalarda yenə şimal qonşumuzun barmağını axtarmaq üçün əsaslar var.

Belə qənaət hasil olur ki, Azərbaycan-Türkiyə birgə hərbi təlimlərinə Rusiya bu dəfə də erməni təxribatları ilə cavab verməyə çalışıb. Bu ehtimalı gücləndirən amillərdən biri də odur ki, Azərbaycan artıq parlament seçkiləri qədəm qoyub və ən azından qarşıdakı iki ayda atəşkəs rejiminin qorunub saxlanmasında hamıdan çox maraqlı görünür.

Bölgənin daim qarşıdurma, müharibə təhdidləri altında yaşaması isə ən çox Kremlə əl verir. Birinci ona görə ki, o halda Qarabağ konfliktinin dinc yollarla həll imkanları daha əlçatmaz olur. İkincisi isə konfrontasiyalar Rusiyanın bölgədə meydan sulaması, regiona hətta yeni hərbi müdaxilələr üçün münbit zəmin yaranmasına xidmət edir.

Heç sübhə yox ki, son vaxtlar Rusiyanın Ermənistanda *(Gümrüdə)*, işğal edilmiş Abxaziya və Cənubi Osetiyada öz hərbi mövcudluğunu gücləndirməsi, öz nəzarətində olan ərazilərdə hərbi təlim və manevrlərini intensivləşdirməsi məhz deyilən hədəflərlə bağlıdır.

***

Təsadüfi deyil ki, bütün təmas xətti boyu vəziyyətin gərginləşdiyi, hər iki tərəfdən itkilərlə müşayiət olunan mövqe döyüşlərinin getdiyi, Türkiyə-Azərbaycan birgə təlimlərinin təzəcə başa çatdığı vaxtda Ermənistanda "İldırım-2015" kod adı altında komanda-qərargah təlimləri başlayıb *(virtualaz.org)*. Özü də təlimlərin başlaması qəfil xarakter daşıyıb və erməni əhalisi arasında təşviş yaradıb. Çünki Ermənistanın Azərbaycanla sərhəd rayonlarından əhalinin kütləvi evakuasiyasına hazırlıq başladığından ermənilər irimiqyaslı müharibənin yaxınlaşmasından qorxuya düşüblər.

Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Artsurun Ovanisyan əhalini sakitləşdirmək üçün kütləvi evakuasiya hazırlıqlarının hərbi təlimlərin ssenarisinə daxil olduğunu açıqlayıb. Ovanisyan deyib ki, hərbi təlimlər "planlaşdırılmış xarakter" daşıyır və sentaybrın 6-nadək davam edəcək. Onun sözlərinə görə, təlimlərin gedişində bütün dövlət strukturlarının işinin koordinasiya olunması da sınaqdan keçiriləcək. Bununla da dövlət strukturlarının mümkün hərbi əməliyyatlara hazırlığı yüksəldiləcək.

Ermənistan Müdafiə Nazirliyi rəsmisinin bildirdiyinə görə bu məqsədlə Tavuş vilayətində müvafiq böyük təlim bazası yaradılacaq, gecələmək üçün xüsusi zonalar ayrılacaq və evakuasiya zonaları müəyyən ediləcək. "Yəni ona hazırlıq görülür ki, müharibə olsa, əhali necə evakuasiya olunacaq", - deyə Ovanisyan qeyd edib.

Mətbuat katibinin dediyinə görə, əhalinin kütləvi evakuasiyası Azərbaycanla həmsərhəd digər rayonlarda sınaqdan keçiriləcək, xüsusi ərazilər isə uşaq bağçalarında və istirahət evlərində yerləşəcək. Təlimlərin ssenarisi isə açıqlanmır. Ovanisyan digər detalların da qapalı olduğunu deyib. Digər məlumata görə, İrəvanda prezident Serj Sərkisyan Təhlükəsizlik Şurasının iclasını keçirib və bu iclas da hərbi təlimlər çərçivəsindədir.

***

Ermənistanda başlayan komanda-qərargah təlimlərinin elementlərindən də göründüyü kimi, işğalçı ölkə mümkün irimiqyaslı hərbi əməliyyatların başlaması ehtimalından narahatdır. Eyni zamanda nəzərə alır ki, savaş başlasa, hərbi əməliyyatlar Ermənistan ərazisinə də keçə, ən azından Azərbaycanla sərhəd bölgələri Azərbaycanın uzaqvuran artilleriyasının və reaktiv yaylım atəşi sistemlərinin birbaşa hədəfi ola bilər.



Vadim Dubnov

Əlbəttə ki, Rusiyanın, QRU-nun tam nəzarətində olan Ermənistan heç vaxt özbaşına, yaxud Moskvanın izni olmadan belə miqyaslı təlimlər keçirmir. Azərbaycanla sərhəddəki təlimlər üstəlik, erməni toplumunu müharibə ilə təhdid eləməyə hesablanıb ki, bu da Kremlin Cənubi Qafqazla bağlı cari və perspektiv maraqlarına bütünlüklə cavab verir.

Onu da qeyd edək ki, növbəti təlimlər də daxil, son erməni təxribatları Rusiya xarici işlər naziri Sergey Lavrovun Bakı səfəri, Azərbaycan-Türkiyə hərbi təlimləri və Ermənistan prezidenti Serj Sərksiyanın Xankəndinə gəlişi ilə zaman etibarilə üst-üstə düşüb ki, bu da təsadüfə az oxşayır. Lakin əksər analitiklər bu hadisələr arasında bağlılıq görsə də, rusiyalı siyasi ekspertlər məsələyə ənənəvi olaraq bir qədər fərqli kontekstdən yanaşırlar.

***

"Azərbaycan-Ermənistan münaqişə zonasında gərginlik permanent xarakter daşıyır və artıq bir ildir ki, davam edir". Musavat.com-un xarici KİV-ə istinadən verdiyi xəbərə görə bunu rusiyalı tanınmış politoloq Vadim Dubnov son günlər təmas xəttində artan hərbi qarşıdurmaları şərh edərkən bildirib.

**Politoloq son eskalasiya faktları ilə hazırlanan növbəti Əliyev-Sərkisyan görüşü və ya Rusiya xaric işlər nazirinin Bakı səfəri arasında əlaqə görmədiyini deyib:** "Analoji vəziyyəti iyulun sonlarında da müşahidə eləmişdik, o zaman isə nə Nyu-York görüşünə hazırlıq gedirdi, nə də Lavrovun Bakı səfəri olmuşdu".

**"Kəskinləşmə qrafiklərinə diqqət etsək görərik ki, qarşıdurmalar nə siyasi, nə də idman hadisələri ilə birbaşa asılılıqda deyil" - deyib Dubnov. Onun sözlərinə görə, müharibənin qızışma ehtimalı həmişə var, ancaq əsas odur ki, onu şişirtmək və xüsusi dramatikləşdirmək lazım deyil:** "Hələ ki müharibə ehtimalı zəifdir, çünki geniş hərbi əməliyyatlar tərəflərin heç birinin maraqlarına daxil deyil".

***

**Lakin bu ilk baxışda belədir. Yaxın tarixin, Gürcüstanın acı təcrübəsi göstərdi ki, bunu birmənalı olaraq Rusiya haqda söyləmək çətindir. Çünki Moskva həmişə "bulanıq suda balıq tutmaq" üçün fürsət axtarıb, belə bir fürsəti tapmadıqda isə onu özü yaratmağa çalışıb.**

# Qarabağa qanunsuz getmiş amerikalı jurnalist Azərbaycanda üzr istədi...



Paul Salopeki

**Pulitzer mükafatının qalibi, jurnalist, "National Geographic" jurnalının əməkdaşı, ABŞ vətəndaşı Paul Salopek Azərbaycan hökumətinə məktubla müraciət edərək, adının "Arzuolunmaz şəxslər siyahısı"ndan çıxarılmasını xahiş edib. Bu barədə XİN-nin Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.**

H.Hacıyevin sözlərinə görə, məktubunda P.Salopek Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinə və qanunlarına hörmət etdiyini və Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinə bilmədən və səfərin fəsadlarından əvvəlcədən məlumatlı olmadan səfər etdiyini qeyd edib. O, bu səfərin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmətsizlik mənası daşıya bilməyəcəyini vurğulayıb.

Səfərlər əlaqədar təəssüfünü ifadə edərək, Paul Salopek Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinə səfərin heç bir halda Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təşviqinə xidmət etmədiyini bildirib.

İşğal olunmuş ərazilərə qanunsuz səfər ilə əlaqədar Azərbaycan hökuməti və xalqından üzr istəyən Paul Salopek gələcəkdə işğal olunmuş ərazilərə bu kimi səfərlərdən çəkinəcəyinə dair zəmanət verib.

**H.Hacıyev bildirib ki, Paul Salopekin müraciəti müvafiq qaydada nəzərdən keçirilib və onun adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına və qədim insanların hərəkət marşrutunun piyada səfərlə öyrənilməsinə xidmət edən "Out of Eden Walk" layihəsi çərçivəsində Azərbaycana səfərinə icazə verilib.**

# Bakı-Xırdalan-Sumqayıt qatarının marşrutu, hərəkət intervalı açıqlandı

**Bakı-Xırdalan-Sumqayıt sərnişin qatarının marşrutu məlum olub. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti Mətbuat Katibliyinin rəisi Nadir Əzməmmədovun APA-ya verdiyi məlumata görə, sentyabrın 15-dən Bakı-Xırdalan-Sumqayıt sərnişin sahəsində 8 elektrik qatarı işləyəcək.**

Sərnişin qatarları Bakı Dəmiryol Vağzalı-Keşlə-Biləcəri-Xırdalan-Güzdək-Sumqayıt sərnişin stansiyası marşrutu ilə hərəkət edəcək. N. Əzməmmədov qeyd edib ki, artıq Sumqayıt sərnişin stansiyasında köhnə inzibati bina sökülüb, bu günlərdə yeni, ikimərtəbəli, müasir standartlara cavab verən inzibati binanın tikintisi başlayacaq. Eyni zamanda artıq Sumqayıt sərnişin stansiyasında yeni platforma, sərnişinlərin təhlükəsiz hərəkəti üçün tunel sentyabrın 15-dən istifadədə olacaq.




Bu marşrutla hərəkət edəcək 8 qatardan 3-ü ikimərtəbəlidir. Bu 3 qatar "Stadler Rail Group" şirkətinin "Stadler Minsk" zavodunda istehsal olunmuş KİSS markalı elektrik qatarlarıdır. Bu elektrik qatarlarının hər biri 4 vaqondan ibarətdir. Ümumi sərnişin tutumu 919 nəfər olan qatarda 396 oturacaq var ki, bunun da 84-ü biznes-sinfə aiddir. İlin sonunda ikimərtəbəli qatarlardan ikisi də gətiriləcək və beləliklə bu xətdə 5 ikimərtəbəli qatar hərəkət edəcək.

Sərnişin qatarları səhər saat 6-dan hər iki istiqamətdə hərəkətə başlayacaq və 40 dəqiqəyə Sumqayıtdan Bakıya və əks istiqamətə çatacaq. Səhər saat 6:00-an səhər saat 12:00 aralığında qatarlar həm Bakıdan, həm də Sumqayıtdan 30 dəqiqə intervalı ilə çıxacaq. Səhər saat 12:00-dan günorta saat 16:00 aralığında elektrik qatarlarının hərəkət intervalı 1 saat olacaq. Günorta saat 16:00-dan gecə saat 24:00 aralığında elektrik qatarları yenə 30 dəqiqə intervalı ilə hərəkət edəcək. Bu intervalların tətbiqi gün ərzində sərnişin sıxlığı ilə əlaqədar müəyyənləşdirilib.

N.Əzməmmədov onu da bildirib ki, növbəti mərhələdə Bakı-Xırdalan-Sumqayıt sərnişin sahəsində elektrik qatarları dairəvi dəmir yolu xətti ilə hərəkət edəcək. Çünki tədricən Sumqayıtdan Abşeron rayonunun Saray, Goradil, Fatmayı, Pirşağı, Kürdəxanı, Zabrat, Sabunçu, Bakıxanov qəsəbələrini əhatə edən marşrut istifadəyə veriləcək və beləliklə, Bakı-Sumqayıt dəmir yolu xətti dairəvi olacaq.

**Bakı-Xırdalan-Sumqayıt elektrik qatarlarına biletləri sərnişinlər həm vağzallarda kassadan, həm də avtomatik işləyən terminallara pul ödəməklə alacaqlar. Biletləri bütün stansiyalardan almaq mümkün olacaq. Sonradan isə biletlərin kartla satış sisteminin tətbiqi nəzərdə tutulub.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**

**Əlaqə üçün: 070 335 90 15**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34


DERVISH TRAVEL
TRAVEL COMPANY

## Turizm şirkəti vətəndaşı aldadıb

### Bakı sakini "Dervish travel"in soyğunçuluğu ilə bağlı məhkəməyə müraciət eləməyə hazırlaşır...

**Türkiyəyə istirahətə getmək istəyən Bakı şəhər sakini Tapdıq İmanov "Dervish travel" şirkəti tərəfindən aldadılıb. İstirahətinin sanki bir əzab olduğunu və pullarının batdığını deyən şikayətçi "Dervish travel"dən onun pullarını geri qaytarmasını tələb edir:**

"Avqustun 1-də "Dervish travel" turizm şirkətinə müraciət etdim. Dedilər ki, müddət avqustun 16-dan 21-ə kimidir. Razılaşdım. Daha sonra "Dervish travel"in ofisinə gəldim. Mənə dedilər ki, 5 nəfər üçün istirahət 5 min dollardır. Mən də bildirdim ki, pulu banka köçürüm, razılaşdılar. Sənədləri aldıqdan sonra bilet alıb ailəmlə getdim Bodruma. Bodruma saat 2-də gəldik. Onlar bizi 2-də otelə yerləşdirməli idilər. Amma yerləşdirmədilər. Bizi "Royal Arena Resort & SPA" otelinə gətirdilər. Dedilər ki, gözləyin, sonra da bizə başqa otaq verəcəklərini dedilər. Məndən otağa yerləşmək üçün 800 dollar pul istədilər. Otağa baxanda 5 nəfər üçün balaca olduğunu gördüm. Ondan sonra mənə dedilər ki, sizin otaq otelin 3-cü mərtəbəsindədir. Həmin otaqda paltar yuyulan yerin yanında yerləşirdi. Orada bütün paltar yuyucu maddələrin iyi gəlirdi. Orada qalmaq mümkünsüz idi. Oteldən mənə dedilər ki, boş yer yalnız buradır. İstəyirsiz qalın, istəmirsinizsə yox. Mən də "Dervish travel"də danışdığım Nadir adlı şəxsə mesaj yazdım ki problemi həll etsin. 5-in yarısında, biz ora çatandan 2 saat yarım sonra dedilər ki, gəlin otağa. Biz imtina etdik".

**Şikayətçi daha sonra deyir:** "Ailəmi də götürüb hava limanına gəldim. Ancaq qayıtmağa bilet tapa bilmədik. Aeroportdan otel axtarmağa məcbur oldum. Butik otel deyilən kiçik bir otel tapdım. İki gün orada qaldıqdan sonra "Dervish travel"in Türkiyədəki "Alaska travel" adlı agentliyi gəldi. Nümayəndənin adı Seymur idi. Dedi ki, 1700 dollar ver səni başqa otelə aparım. 1700 dollar verəndən sonra bizi Amara adlı otelə gətirdi. Orada da iki gün qaldıqdan sonra uşaqlarım zəhərləndi. Yalnızca mənim uşaqlarım deyil, oteldə olan hər kəs zəhərləndi. Mənim iki uşağım daxil olmaqla bir gecədə 18 nəfəri xəstəxanaya apardılar. Nadirə zəng etdim cavab vermədi. "Dervish travel"in Türkiyədəki "Alaska travel" agentiyinin bizi otelə yerləşdirən nümayəndəsi Seymura zəng etdim. Mənə gəlirəm dedi, amma gəlmədi. Heç zəhərlənmənin səbəbləri də bəlli deyildi. Bundan sonra Azərbaycana qayıtdıq. Biz 2 gün öz pulumuza başqa oteldə qaldıq. 5 günə isə yenidən 1700 manat ödədim. Halbuki bütün bunları "Dervish travel"in Türkiyədəki "Alaska travel" həll etməli idi. Mən bunun üçün onlara 5 min dollar pul ödəmişdim. Ümumilikdə 6700 dollar xərclədim ki, bu da heç bir çərçivəyə sığmır. Bu AZAL, bilet, xidmət problemi deyil. Azərbaycana gələndən sonra verdiyim 1700 dollarımı istədim. Dedilər ki, "Alaska travel"lə danışıb sənin 1700 dollarını qaytarmağa çalışaram. Dedi ki, zəng edəcəyəm, amma etmədi. Sonra da dedi ki, mənlik deyil, Seymurluqdu. Mən ona cavabdeh deyiləm onlarla çalışaram".

Şikayətçi üzləşdiyi haqsızlığın öz həllini tapmasını tələb edir və məhkəməyə müraciət edəcəyini deyir.

**Məsələ ilə bağlı ittihamlarda adı hallanan qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

**Günel MANAFLI**

## Bakıda faciə: dörd yaşlı uşaq hovuzda boğuldu



**Bakıda azyaşlı uşaq öz həyətlərində hovuzda boğularaq ölüb. Musavat.com xəbər verir ki, hadisə Binəqədi rayonunda baş verib. Goradil bağlarında yaşayan 2011-ci il təvəllüdlü Zahid Məsimov evin həyətində su hovuzuna düşərək boğulub. Faktla bağlı Binəqədi polisində araşdırma aparılır.**


**Elan**

Bakı şəhəri, Suraxanı rayon, Əmircan qəsəbəsi Elxan Həsənov küçəsi ev 87, mənzil 25-də yaşayan Cəfərova Mətanət Tofiq qızının adına verilmiş Qeydiyyat Vərəqəsi itdiyi üçün etibarsız sayılır.

# Bakıda zəhərli balığın satışına rəsmi icazə verilib

## Marketlərdən bildirilir ki, indiyədək zəhərlənən olmayıb, həkim bunun fəsadlarından söz açır, rəsmi qurum isə laboratoriya testlərinin müsbət nəticələrinin olduğunu deyir

**Bir müddətdir həm sosial şəbəkələrdə, həm peşəkar mediada Bakıda zəhərli balıqların satışı haqda məlumatlar dolaşır. Mağaza və supermarketlərdə panqasius adlı zəhərli hesab olunan balığın satışı ilə bağlı şikayətlər artıq ciddiləşib. Elə redaksiyamıza da bununla bağlı bir çox şikayətlər bildirilib.**

Qeyd edək ki, bu balığın satışı dünyada qadağan olunub. Səbəb sözügedən balığın tərkibində sənaye tullantılarının, mərgümüşün, toksik maddələrin olmasıdır. Panqasiusu dünyanın ən zəhərli balığı hesab etmək olar.

Balığın zəhərli kimi qeyd olunmasının bir səbəbi də onun vətəninin Vyetnamın Mekonq çayı olmasıdır. Bu çay Yer kürəsinin ən çox çirklənən çaylarından hesab olunur. Çünki bura Mekonq kanalizasiya sularının, mineral gübrələrin, dəri, yaxud kimya zavodlarının tullantılarının geniş axıdıldığı yerdir. Avropada məhsulların tərkibini araşdıran qurumlar dəfələrlə balıqlara yerləşdirilən hormonların tərkibi haqda məlumat istəsələr də Vyetnam bu məlumatları verməkdən imtina edib.

Araşdırmamız nəticəsində gördük ki, Avropa və Amerikada satışı və yeyilməsi qadağan edilən bu balığa paytaxt mağazalarında rast gəlmək mümkündür. Bakı mağazalarında bu balıqlar açıq şəkildə, digər balıq növləri ilə birlikdə satılır.

Metronun "Neftçilər" stansiyası yaxınlığında yerləşən "Qarabağ" marketində bu balığı açıq şəkildə satıldığının şahidi olduq. Satıcılar bildirirlər ki, uzun zamandır panqasius satırlar. Hələ də heç bir müştəri şikayətçi olmayıb. Balığın kiloqramı 3 manat 80 qəpik, bəzi yerlərdə isə 4 manata satılır.






Eyni zamanda "Supermarket No1", "Grant Mart" kimi iri supermarketlərdə də panqasius balığının satıldığının şahidi olduq. "Grant Mart"ın administrasitoru Fərhad Əfəndiyev musavat.com-a mövzu ilə bağlı açıqlamasında bildirib ki, digər balıqlar kimi panqasiusun da hər zaman satışı ilə məşğul olublar: "Bu balığın zəhərli olması ilə bağlı bizə hər hansı məlumat verilməyib. Eyni zamanda mağazamızda mütəmadi olaraq məhsulların keyfiyyətləri ilə bağlı müvafiq qurumlar tərəfindən yoxlamalar aparılır. Onlar da bizə bu məhsulun qadağan olunması ilə bağlı hər hansı irad tutmayıblar. Balıqları bizə şirkət gətirir. Həmin şirkətin adını sizə açıqlamağa icazəm yoxdur. Ancaq əgər belə bir xəbərdarlıq olarsa ki, bu balıqların satışı dayandırılsın, biz də satmarıq. Onu da qeyd edim ki, mən artıq 5 ildən çoxdur bu mağazada administrator vəzifəsində çalışıram. Bu müddət ərzində heç bir müştəri panqasiusun zəhərli olması ilə bağlı bizə şikayət etməyib. Bundan zəhərlənənləri də eşitməmişəm. Bir daha bildirirəm ki, əgər qadağa qoyularsa və bizə bununla bağlı məlumat daxil olarsa, məhsulun satışını dayandırarıq".

*Göründüyü kimi, Bakıda iri və kiçik marketlərdə bu balıqların satışı hələ də davam etdirilir. Satıcılar isə iddia edirlər ki, bu növ balıqlardan şikayətlənənlər olmayıb. Bəs panqasiusun insan orqanizminə zərəri nə zaman özünü büruzə verir?*

**Tibb elmləri doktoru, professor Adil Qeybulla** musavat.com-a deyib ki, istənilən qidaya hər insan orqanizmi müxtəlif cür reaksiya verə bilər: "Mədə turşuluğundan, qidanın bağırsaqlardan mədəyə sovrulmasından da çox şey asılıdır. Bəzi balıqlar var ki, onların yeyilməsi məqsədə uyğun sayılmır. İnsanlar gərək bu kimi xəbərdarlıqlara diqqət etsinlər. Toksidlərin gücündən də çox şey asılıdır. Bəzi heyvanlarda olan toksid maddələr qoruma vasitəsi kimi meydana çıxıb. Bu, uzun müddət ərzində formalaşan bir prosesdir. Müəyyən toksid maddələr orqanizmə düşdükdən sonra tədricən də reaksiya verə bilər, dərhal da. Elə zəhərlər var ki, ağız boşluğuna düşərək dərhal ölümə gətirib çıxarır. Yəni bu toksid maddələrin növündən asılı olaraq orqanizmə göstərdiyi təsir də müxtəlif olur".

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin (DBX) mətbuat mərkəzinin rəhbəri Yolçu Xanvəlinin** də fikirlərini aldıq. Y.Xanvəli musavat.com-a açıqlamasında bildirib ki, panqasius balıqları ilə bağlı lazımı yoxlamaları aparıblar:

"Hər hansı bir ölkədən heyvan və heyvan mənşəli məhsul gətirilirsə, gömrük orqanlarında açılış zamanı həmin məhsullardan nümunələr götürülür. Respublika Baytarlıq Laboratoriyasında həmin nümunələr mikrobioloji, bakterioloji, kimyatoksikoloji və digər bu kimi istiqamətlərdə müayinə edilir. Əgər müayinənin nəticələri müvafiq tələblərə uyğun olarsa, insan orqanizmi üçün təhlükə yaratmazsa, həmin məhsulun satışına icazə verilir. Bundan əlavə onu da qeyd edim ki, pankasius balığı ilə bağlı bir müddət əvvəl də müzakirələr meydana çıxmışdı. O zaman biz araşdırmalar apardıq. Bununla kifayətlənməyərək, Türkiyəyə də həmin balıqlardan nümunələr göndərdik. Orada yenidən müayinələr aparıldı. Respublika Baytarlıq Laboratoriyasında alınan nəticələr, Türkiyədə də öz təsdiqini tapdı. Bu da onu göstərir ki, gətirilən məhsulun heç bir təhlükəsi yoxdur. Buna bizim tərəfimizdən tam nəzarət olunur. İnsanların sağlam qidalanması üçün məsul orqan olaraq, biz buna cavabdehik".

**Beləliklə də dünyada qadağan edilən panqasius balıqlarının ölkədə satışına rəsmi qaydada icazə verilir.**

❑ **Əli RAİS,**
**musavat.com**

# Rəhbəri həbsdə olan A.M.A.Y. iflas edir

## Əksər ticarətçilər adətən, saat 18:00-dan sonra mağazalarını açırlar; alıcı olmasa da qiymətlər bahadır

**Bu ilin fevral ayında manatın 35 faiz devalvasiyasından sonra paytaxt Bakıda bir sıra sahibkarlar müştərilərin azlığı, vergi xərclərinin isə yüksək olduğunu əsas gətirərək obyektlərini bağladılar. Araşdırmamız nəticəsində öyrəndik ki, bağlanan obyektlərin əksəriyyəti geyim mağazaları olub. Mağazalarını bağlanmayanlar isə kəskin endirimlərə gedərək, müştəri qazanmağa çalışırlar. Şəhərin mərkəzində yerləşən mağazaların əksəriyyətində 70 faiz endirimdə olan geyimlərə rast gəlmək olur.**

İqtisadçılar hesab edirlər ki, bir neçə ay sonra, neftin qiymətinin aşağı düşməsi, manatın isə dollara nisbətdə ucuzlaşması səbəbindən geyim satışı ilə məşğul olan mağazaların vəziyyətləri daha da acınacaqlı olacaq.

Sosial mediada aparılan müzakirələrdə isə ölkədə ən acınacaqlı vəziyyətdə olan ticarət mərkəzləri sırasında, birinci yerdə A.M.A.Y ticarət mərkəzinin adı çəkilir. Məlumatlara görə, ticarət mərkəzinin rəhbəri Abdulla Abdullayevin həbsindən sonra burada vəziyyət daha da ağırlaşıb.





**İddiaların nə dərəcədə doğru olduğunu yoxlamaq üçün adı çəkilən ticarət mərkəzində olub.**




A.M.A.Y-da olduğumuz zaman ilk baxışdan vəziyyətin deyildiyi kimi, gərgin olduğunun şahidi olduq. Biz qapıdan içəri daxil olarkən satıcıların ticarət mərkəzinin girişində durub, yoldan keçən toy karvanına baxırdılar. Satıcılar dərindən ah çəkərək şikayətlənirdilər ki, artıq toy ərəfəsində də camaat gəlib özünə geyim almır.

Ticarət mərkəzi 8 mərtəbəli olsa da, mağazalar ancaq birinci mərtəbədə fəaliyyət göstərir. Birinci mərtəbədə fəaliyyət göstərən mağazaların əksəriyyətinin qapısını bağlı gördük. Bunun səbəbini Rasim adlı satıcı belə izah etdi: "Alıcı yoxdur. Həftənin şənbə və bazar günləri bir-iki alıcıya rast gəlmək olur ki, onlar da sadəcə, baxmağa gəlirlər. Qiymətlərimiz də baha deyil ki, deyək buna görədir. Bu baxımdan da əksər mağaza sahibləri gündüz vaxtı mağazanı heç açmırlar. Alıcılar adətən, saat 18:00-dan sonra gəldikləri üçün satıcılar da elə həmin vaxtı gəlib mağazalarını açırlar. Çoxları isə icarə haqqını verə bilmədiyi üçün ümumiyyətlə, mağazanı bağlayıb, çıxıb gedib. Ötən illərlə müqayisədə "AMAY"da 10-dan çox mağaza fəaliyyətini dayandırıb. Səbəb isə müştərinin azlığı və icarə haqqının baha olmasıdır. Oğlanlar olub ki, burada aya 1000 manat icarə haqqı verib. İndi isə camaatda pul olmadığı üçün alış-veriş də aşağıdır. Bu baxımdan icarə vermək də olmur. Vallah, burada icarədarlar müştəri görəndə sevinir. Müştəri üzünə həsrətik. ASAN Xidmət Mərkəzi bura köçürülsə də, ora gələn camaat da mağazalara girmirlər".

Mağazaları gəzib qiymətlərlə maraqlandıq. Bəzi icarədarlar artıq qış geyimlərini satışa çıxarıblar. Satıcılar deyirlər, bizim camaatda bir psixologiya var ki, qışın malın yayda, yay geyimlərini isə qışda alırlar. Bizdə ona görə yay olmasına baxmayaraq, qış malları satırıq ki, heç olmasa gəlir əldə edək.

Lakin bir məqamı da qeyd edək ki, A.M.A.Y-ı gəzdiyimiz zaman heç bir endirimin şahidi olmadıq. Demək olar ki, heç bir mağazanın üzərində endirimlə bağlı elan yox idi. A.M.A.Y-da geyimlərin digər ticarət mərkəzləri ilə müqayisədə baha satıldığını müşahidə etdik. Bunu isə satıcılar müştərinin azlığı, icarə haqqının isə baha olması ilə əlaqələndirdilər.

*Bəs A.M.A.Y-da qiymətlərin baha olmasının səbəbi nədir?*

**Məsələ ilə bağlı iqtisadi ekspert Oqtay Haqverdiyev bildirib ki, icarədarlar icarə haqqını və gələcək riskləri nəzərə alaraq, əllərində olan malları baha qiymətə satırlar:**

"Ümumiyyətlə, dünya praktikasına görə əgər bir ticarət mərkəzinin iqtisadi riskləri çoxdursa, bağlanma təhlükəsi daha böyükdürsə, orada icarədarlar hər zaman əllərində olan malları baha qiymətə satmağa çalışırlar. Bakıda da belədir. Hazırda ölkəmizdə mağazalar var ki, onların qarşısında 70 faiz endirim olduğu barəsində məlumat lövhələri vurulur. Bir mağazanın əlində olan malı 70 faiz ucuz satması iqtisadi baxımdan mümkün deyil. Bu yalnız o zaman baş verir ki, icarədar mövsüm zamanı baha satdığı məhsulu, mövsüm bitdikdən sonra maya dəyərinə yaxın qiymətə satır. Müştərilərin az olduğu zaman qiymətin yuxarı olmasının isə səbəbi dediyim kimi, risklərlə bağlıdır".

❑ **Əli RAİS**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 196 (6224) 5 sentyabr 2015



## İstiotun faydaları

Yeyərkən bizi tərlədən, ağzımızı, toxunarsa gözümüzü "yandıran" istiotun əslində bir çox faydası var. İstiot kalsium, maqnezium, dəmir, vitamin K və C ilə zəngindir. Öskürəyi yox etməyə kömək edir, soyuqdəymə və həzmə xeyirdir. Minerallarla zəngindir. Tərkibindəki C vitamini sayəsində təbii antibiotik özəlliyi var. Xəstəliyin qarşısını almaqda təsirlidir və iltihaba qarşı istifadə edilə bilər. Xlorid turşusu ifraz edərək, həzmi asanlaşdırır, mədə və bağırsaqla bağlı xəstəlikləri əngəlləməyə kömək edir.

Bakteriyaların səbəb olduğu xəstəliklərin müalicəsi üçün kömək olur. Qəbzlik, ishal kimi xəstəliklərin müalicəsində də effektlidir.

İstiot öskürək və soyuqdəymə əleyhinə dərman kimi istifadə olunur. Balla qarışdırılanda öskürəyə qarşı faydalıdır. Qrip və burun tutulmasına yaxşı təsir edən istiot xərçəngə qarşı da effektlidir. O, maddələr mübadiləsini artırmağa və izafi kaloriləri yandırmağa kömək edir. Dəriyə faydalı olub sağlamlıq bəxş edir. Diş sağlamlığının yaxşılaşmasında da istiot təsirli ədviyyatdır. Diş çürümələrinə qarşı mübarizə aparmağa kömək edir. Mədədə yaranan problemlərdə, xüsusən qazı yox etməkdə yaxşı təsirə malikdir.

# İntiharı xəbər verən test

Alimlər qanda intihar riski ilə bağlılığı olan yeni bir bio-işarə kəşf ediblər. Artıq insanların intihar etmə ehtimalları qan testləri ilə müəyyənləşəcək. Amerikanın İndiana Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, şəxsin intihara meylli olub-olmadığı 72% ehtimalla bilinə bilir. Əgər qan testi ilə bərabər şəxs verilən suallara da cavab verərsə, ehtimalı 92%-lə dəqiqləşdirmək mümkün ola biləcək.



Araşdırmaçılar testlərə icazə alındıqdan sonra xəstələrin necə nəzarətdə saxlanıla biləcəyi haqda dəqiq qərar verəcəklərini deyiblər. İntihar riski üzərində ötən il aparılan digər araşdırmalar göstərib ki, qanda suisid düşüncəsi ilə əlaqədar olan bəlli işarələr bipolyar narahatlıqlarda özünü göstərir.

# 5 saatlıq əməliyyatla ayrıldılar

Bu il 12 mart tarixində Gürcüstanda dünyaya gələn Tamai və Tebrole adlı "Siam əkizləri" Almaniyanın Köln şəhərindəki uşaq xəstəxanasında bir-birindən ayrılıblar. Uşaqları əməliyyat edən cərrah Tomas Bemers əməliyyatın yaxşı keçdiyini, lakin uşaqların bir müddət reanimasiyada qalacağını deyib. Həkimin sözlərinə görə, əkiz bacıların hər ikisi normal həyatlarına davam edəcəklər.

Əməliyyatı olduqca çətin olduğu və Gürcüstanda buna imkan olmadığı üçün ailələri onları Almaniyaya aparıb. Mütəxəssislərin sözlərinə görə, onlar üçün ən çətin məqam qaraciyərlərin ayrılması olub. Əkizlərə eyni anda narkoz verilməsi də həkimlər üçün olduqca çətin olub. Əməliyyatda fərqli ixtisaslar üzrə 20 həkim iştirak edib.

Məlumat üçün bildirək ki, "Siam əkizləri" milyonda bir ehtimalla dünyaya gəlirlər. Tək yumurta əkizlərinin ayrılması olduqca çətindir.





## Qoyun rekord qırdı

Avstraliyanın Canberra bölgəsində tapılan və beş il boyunca qırxılmaqdan qaçmağı bacaran böyük qoyun sonunda kürkündən xilas olub. "Chris" adı verilən qoyun üzərindən çıxan 40,5 kiloqram ağırlığındakı yun ilə dünya rekordu qırıb.

Daha əvvəl belə bir şeylə qarşılaşmadığını deyən beynəlxalq qoyun qırxma çempionu olan İan Elkins Chrisi qoyunu 4 adamın köməyi ilə qırxa bildiyini deyib. Qoyunun "Daily Mail"ə müsahibə verən nəzarətçiləri onun səhhətinin yaxşı olduğunu, lakin bir müddət nəzarətə saxlanılacağını deyiblər. Qoyunun yunlarının uzunluğunu 47 santimetr olduğu bəlli olub.

Məlumat üçün bildirək ki, "Chris"dən əvvəlki rekord Yeni Zelandiyada yaşayan Big Ben adlı qoyunla bağlı olub. Onun üzərindən 28,9 kiloqram ağırlığında yun çıxmışdı.




**QOÇ** - Münaqişəli gün olsa da, təmkin nümayiş etdirməklə sülhə nail olmaq mümkündür. Nahar ərəfəsində hisslərinizi daha bərk cilovlayın. Bu gün ulduzlar sizi varlandırmağa çalışacaq.

**BUĞA** - Məhəbbət məsələlərində uğurlara yiyələnmək üçün şanslarınız artacaq. Əgər səhv sizdədirsə, üzr istəməkdən çəkinməyin. Hər halda, ruhi yaxınlıq üçün çılğınlıqdan uzaq olmaq lazımdır.

**ƏKİZLƏR** - Mənfi enerjili Ay bürcünüzdə olduğu üçün ümumi əhvalınız aşağı ola bilər. Amma özünüzü tənzimləyə və məqsədinizə yetişə bilərsiniz. Ailə üzvlərinizlə mehriban və səmimi davranın.

**XƏRÇƏNG** - İkitərəfli əməkdaşlığa başlamaq üçün gözəl ərəfədir. Bu səbəbdən də öhdənizə düşən işləri asanlıqla yerinə yetirə biləcəksiniz. Pul məsələlərində isə riskə getməyin.

**ŞİR** - Əməlli-başlı varlanma ehtimalınız var. Bunun üçün ilk növbədə məsuliyyətinizi dərk etməli və aldığınız dəvətlərə razılıq verməlisiniz. Nahardan sonra büdcənizdə artım mümkündür.

**QIZ** - Ətrafınızda olan insanlarla daha səmimi olmağa çalışın. Elə edin ki, hamının rəğbət mərkəzində olasınız. Bu cəhət daha çox sevgi və qohumluq tellərinə şamildir. Aktivliyinizi artırın.

**TƏRƏZİ** - Qərar çıxararkən təcrübəli insanların məsləhətlərindən bəhrələnə bilsəniz, gün ərzində narahatçılığınız olmayacaq. Saat 17-dən sonra yeni təklif və ya dəvətlər alacağınız gözlənilir.

**ƏQRƏB** - Büdcənizlə bağlı vəziyyət xeyrinizə olsa da, səhhətinizdə problem gözlənilir. Qan-damar sistemində, eləcə də qida məsələlərində diqqətli olun. Buna xatir münaqişələrdən qaçın.

**OXATAN** - Astroloji göstəricilər əsasən səfərlər istiqamətində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Odur ki, maddi imkanınız olduğu təqdirdə uzaq yola hazırlaşmağa dəyər.

**OĞLAQ** - Əsas vaxtınızı iş prinsipinə yönəldin. Digər məsələlərə isə çox da aludə olmayın. Çünki işdən kənarda ciddi uğurlarınız gözlənilmir. Yersiz risklərə bugünlük son qoyun.

**SUTÖKƏN** - Çox maraqlı bir təqvim yaşayacaqsınız. Ola bilsin ki, ürəyinizcə olan bir xəbər də eşidəsiniz. Əgər imkan tapsanız, günün birinci yarısında müqəddəs yerlərə baş çəkin.

**BALIQLAR** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq imkanınız var. Bu istiqamətdə sizə ətrafınızda olan səmimi və təcrübəli insanların da köməyi dəyə bilər. Heç kimi incitməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Beyni qurdlanan qadın



ABŞ-ın Texas ştatında baş ağrısı şikayəti ilə həkimə gedən qadını müalicə edən həkimlər onun xəstəliyinin səbəbini öyrəndikləri zaman şoka düşüblər. 31 yaşlı Yadira Rostra adlı qadın baş ağrıları hər gün gücləndiyi üçün xəstəxanaya gedib. Məlumatlara görə, onun beynində 8 ədəd bağırsaq qurdu aşkarlanıb.

Neyrocərrah Riçard Meyrat kiçik kisələr içindəki qurdların qida yolu ilə beyinə çatdığını dilə gətirib. Həyatı boyunca belə bir hal ilə qarşılaşmadığını deyən cərrah qadının ölmədiyi üçün şanslı olduğunu deyib. Qadının beynindəki qurdlar təmizləndikdən sonra baş ağrıları keçib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300